# TerRa Vəsaitlər toplusu

Radikallaşmaya icma yanaşması

*Avropa miqyasında müxtəlif tərəfdaşlardan ibarət şəbəkəyə məxsus radikalizmin öyrənilməsi və qarşısının alınmasına dair proqram*

## MÜNDƏRİCAT


GİRİŞ 5

MÜƏLLİM VƏ GƏNCLƏR SAHƏSİ İŞÇİLƏRİ ÜÇÜN VƏSAİT 13

DİNİ LİDERLƏR ÜÇÜN VƏSAİT 25

JURNALİSTLƏR ÜÇÜN TƏLİMATLAR 37

SİYASƏTLƏ BAĞLI TÖVSİYƏLƏR: YERLİ HÖKUMƏT 51

SİYASƏTLƏ BAĞLI TÖVSİYƏLƏR: MİLLİ HÖKUMƏT 57

## İNGİLİS DİLİNDƏKİ ORİJİNAL NƏŞRLƏ BAĞLI QEYD


MÜƏLLİFLƏR

Holly Young
Jorien Holsappel
Magda Rooze
Arjan de Wolf (Müəllim və gənclər sahəsi işçiləri üçün vəsait)
Jonathan Russeli (Milli hökumətlərə siyasətlə bağlı tövsiyələr)
Usama Hasan (Dini liderlər üçün vəsait)



ƏRSƏYƏ GƏLMƏ

TERRA Avropa Komissiyasının Daxili işlər üzrə Baş Direktorluğunun maliyyə dəstəyi ilə Avropa miqyasında müxtəlif tərəfdaşların birgə həyata keçirdiyi radikalizmin öyrənilməsi və qarşısının alınmasına dair iki illik layihədir. Layihə Amsterdamda yerləşən Biliyə Təsir və Məsləhət Mərkəzi (Impact Knowledge and Advice Centre) ilə Madriddə yerləşən AV11M tərəfindən icra olunur.

Avropa miqyasında fəaliyyət göstərən peşəkarlar üçün hazırlanmış vəsait hazırda Avropada radikallaşmanın geniş yayılmış formaları ilə bağlı məsələləri əhatə edir.

DİZAYN VƏ İSTEHSAL

Burobraak, Amsterdam



© 2014 IMPACT, PARTNER IN ARQ


Bu vəsaitin hazırlanmasına kömək göstərmiş peşəkarlarla bağlı ətraflı məlumat üçün TERRA'nın internet səhifəsinə müraciət edin:
wwyy.terra-net.eu

Vəsaitlər toplusunun tam mətni, eləcə də digər sənədlər www.terratoolkit.eu internet səhifəsindən əldə edilə bilər.


TERRA LAYİHƏSİ İLƏ ƏLAQƏ

M. Rooze MA/MBA
TERRA Layihəsinin Rəhbəri
info@terratoolkit.eu
www.terr3-net.eu

# TerRa Vəsaitlər toplusu

Radikallaşmaya icma yanaşması

*Avropa miqyasında müxtəlif tərəfdaşlardan ibarət şəbəkəyə məxsus radikalizmin öyrənilməsi və qarşısının alınmasına dair proqram*

## AZƏRBAYCAN DİLİNDƏKİ NƏŞRLƏ BAĞLI QEYD

Beynəlxalq Miqrasiya Təşkilatı (BMqT) miqrantlara və cəmiyyətlərə fayda verən miqrasiya prosesinin humanist və nizamlı şəkildə təşkili prinsipinə aid müvafiq öhdəliklərinə sadiqdir. Hökumətlərarası təşkilat olaraq BMqT miqrasiya sahəsində yaranan çağırışların operativ həllinə yardım, miqrasiya məsələlərinin daha da dərindən mənimsənilməsinin qabaqcıl şəkildə təşkili, miqrasiya prosesləri vasitəsi ilə sosial-iqtisadi inkişaf üçün lazımi şəraitin yaradılması, həmçinin miqrantların ləyaqət və rifahının təmin edilməsi istiqamətində beynəlxalq ictimaiyyətdən tərəfdaşları ilə birlikdə fəaliyyət göstərir.

"TerRa vəsaitlər toplusu: Radikallaşmaya icma yanaşması" nəşri Amerika xalqının Amerika Birləşmiş Ştatlarının Beynəlxalq İnkişaf Agentliyi (USAID) vasitəsilə ayırdığı səxavətli yardımı sayəsində ərsəyə gəlib. Bu vəsait USAID-in maliyyə dəstəyi ilə BMqT-nin Azərbaycandakı Nümayəndəliyi tərəfindən Azərbaycan Hökuməti ilə sıx əməkdaşlıq şəraitində həyata keçirilən "Həssas icmaların dəyanıqlığının gücləndirilməsi" layihəsi çərçivəsində Azərbaycan dilinə tərcümə edilərək hazırlanıb.

Nəşrdə ifadə olunmuş fikirlər müəllifə məxsusdur və o, heç bir halda BMqT və ya USAID-in rəsmi mövqeyini əks etdirmir. Vəsaitdə verilmiş qeydlər və təqdim olunmuş materiallar hər hansı bir ölkə, ərazi, şəhər, bölgə və ya əlaqədar orqanın hüquqi statusu, yaxud onun sərhədləri və ya səlahiyyət çərçivələrinə dair BMqT və ya USAID tərəfindən hər hansı bir fikrin ifadə olunmasını nəzərdə tutmur. BMqT və USAID vəsaitin Azərbaycan dilinə tərcüməsi zamanı yaranmış ola biləcək hər hansı uyğunsuzluğa görə məsuliyyət daşımır.

Naşir: Beynəlxalq Miqrasiya Təşkilatının
Azərbaycan Respublikasındakı Nümayəndəliyi
Yaşar Hüseynov küç. 18, Bakı şəhəri, AZ1069
Tel: +994 12 4659071/72
Faks:+994 12 465 90 73
E-poçt: iombaku@iom.int
Veb-səhifə: www.iom.int; www.iom.az

© Beynəlxalq Miqrasiya Təşkilatı (BMqT), 2019-cu il

Bütün hüquqlar qorunur. Bu nəşrin heç bir hissəsi naşirin müvafiq yazılı razılığı olmadan yenidən dərc edilə, digər informasiya sistemlərində saxlanıla, istənilən formada və ya elektron, mexaniki, surətçıxarma, yazma və ya digər vasitələrlə ötürülə bilməz.

USAID
AMERİKA XALQINDAN

Beynəlxalq Miqrasiya Təşkilatı (BMqT)
BMT-nin Miqrasiya Agentliyi

# GİRİŞ

## 1 TERRA NƏDİR?

TERRA Avropa Komissiyasının Daxili İşlər üzrə  Baş Direktorluğunun maliyyə dəstəyi ilə Avropa miqyasında müxtəlif tərəfdaşların birgə həyata keçirdiyi radikalizmin öyrənilməsi və qarşısının alınmasına dair layihədir. Layihə Amsterdamda yerləşən Biliyə Təsir və Məsləhət Mərkəzi (Impact Knowledge and Advice Centre) ilə Madriddə yerləşən AV11M tərəfindən icra olunur.

TERRA terrorizmə aparan radikallaşmaya münasibətdə qabaqlayıcı (preventiv) yanaşmanı izləyir. Həyata keçirilmiş ən son tədqiqatlar, eləcə də bu sahədə çalışan mütəxəssislər, akademik ekspertlər, terrorizmin qurbanları və sabiq radikallar ilə aparılmış məşvərətlərin nəticəsi olaraq layihə icma yanaşmasını təklif edir. Bu yanaşma radikallaşma üçün motivasiya amilləri yaradan mövcud narazılıqların aradan qaldırılması, fərdin radikallaşma prosesində olmasının müəyyən edilməsi və orada iştirakının dayandırılması və nəhayət şəxsi hər hansı bir terror hücumunda iştirakdan yayındırmaq məqsədilə hazırlanmışdır.

## 2 TERRA VƏSAİTLƏR TOPLUSU

Bu vəsaitlər toplusu icma yanaşmasını başlanğıc nöqtəsi kimi müəyyən edir. Başlıca olaraq o, müəllimlər, sosial işçilər, hüquq mühafizə orqanları, dini liderlər, yerli və milli siyasət qurucuları arasında gənclər və ya ümumilikdə problemlərin müşahidə olunduğu ərazilərdəki insanlarla bağlı informasiya mübadiləsini dəstəkləyir. Vəsaitlər toplusu eyni zamanda jurnalist və siyasət qurucularını radikallaşmanın fundamental amilləri üzərində malik ola biləcəkləri təsirlər barəsində də məlumatlandırır.

Bizim vəsait Avropa miqyasında peşəkarlar üçün nəzərdə tutulmuşdur və o, ekstremizmin Avropada geniş yayılmış bütün formalarını - sağçı ekstremizm, solçu ekstremizm, dini ekstremizm, separatizm və tək məsələ üzrə ektremizmi - əhatə etməyə istiqamətlənir. Dini liderlər üçün hazırlanmış hissə isə sırf dini ekstremizmə fokuslanmışdır.

**Vəsaitlər toplusu aşağıdakılardan ibarətdir:**

- Məqsəd, fərziyyələr, çıxış nöqtələri, istifadə və implementasiyaya dair qeydləri özündə ehtiva edən ümumi arxa plan;
- Hər bir hədəf qrup üçün hazırlanmış xüsusi vəsait;
- Video material;
- Ümumi məlumat ilə internet (veb) səhifə (istifadə olunmuş ədəbiyyata dair hissə, hər bir hədəf qrup üzrə hazırlanmış ümumi sənəd, biblioqrafiya və qabaqlayıcı proqram və ya mümkün tərəfdaşlıqlara dair müvafiq mənbələri ehtiva edir).

## 3 BİZİM VƏSAİTLƏR

TERRA layihəsi radikallaşma təhlükəsinə həssas olan gənclərlə işləyən müxtəlif peşəkar qruplar üçün nəzərdə tutulmuş bir sıra sənədlər hazırlamışdır. Onların məqsədi radikallaşmaya dair məlumatlılığı artırmaqla yanaşı onun necə görünən edilə biləcəyi ilə bağlı suala cavab tapmaqdır. Biz mümkün indikatorlar siyahısını təqdim edir, qabaqlayıcı (preventiv) yanaşmanı tətbiq etmək məqsədilə əlaqələndirilmiş formada birgə işi təklif edirik. Vəsaitlərin ərsəyə gəlməsi, eləcə də istifadəsilə əlaqədar olan bir sıra ilkin məqamları təqdim etmək istərdik:

1 Hədəf qruplar və icma yanaşmasının əhəmiyyəti;

2 TERRA-nın radikallaşma proseslərini qavrayışı;

3 "İndikatorlar"ın istifadəsinə dair vacib qeydlər.

## 4 İCMA YANAŞMASININ ƏHƏMİYYƏTİ

TERRA əsas diqqətini radikallaşma prosesini erkən müəyyən edərək onun qarşısının alınmasına yönəldir. Bu müəyyənləşdirmə təhlükə ilə üz-üzə olan həmin gənc insanların yaxın çevrəsində baş verməlidir. Valideyn və yaşıdlardan başqa bu, yaxın ətraf məktəb müəllimləri, gənclər sahəsi işçiləri, dini liderlər və polis zabitləri kimi müxtəlif sahədəki peşəkarlardan ibarətdir. Onlar terrorizm sahəsində mütəxəssis olmasalar da "ilkin xəbərdarlıqlar" kimi qiymətləndirilə bilən əlamətləri müşahidə edən gözlər və qulaqlar ola bilərlər. Gördükləri və eşitdiklərinə məna vermək üçün daha aydın mənzərəyə nail olmaq və şəxsə necə yanaşmaq və nəzarətdə saxlamağa



dair müzakirələr aparmaq məqsədilə onların həmin şəxslə əlaqədar narahatlıqlarını bölüşmələri böyük əhəmiyyət kəsb edir.

İcma yanaşmasını tətbiq etməyin əsas məqsədi həm radikallaşma prosesində olan həssas vəziyyətdəki şəxsin, həm də yaxın və daha geniş kontekstdə ətrafındakılarının təhlükəsizliyini mühafizə etməkdir. Ailələr və ilkin təmasda olan şəxslərlə bağlı deyə bilərik ki, ailə üzvləri və peşəkarlar həssas vəziyyətdə olan bu şəxslə müxtəlif aralıqlarla əlaqə saxlayırlar.

Dairə daxilində hər bir halqanın həssas vəziyyətdə olan şəxslə müxtəlif kontaktı var. Davranışlarda, həmyaşıd yoldaş qrupu və ya ideologiyada hər hansı bir dəyişiklik ən kənardakılarla müqayisədə ən yaxın halqadakı ailə üzvləri və peşəkarlar üçün daha açıq-aşkar bəlli olur. Məsələn, gənc insanın valideynləri görə bilir ki, onların oğlu öz xarici görünüşündə ciddi dəyişiklik edib və tədricən öz köhnə həmyaşıd qrupunu tərk edərək yeni dostlar qrupu ilə toplaşır. Gənci ilk dəfə görən polis zabiti onun son bir il ərzində nə qədər dəyişdiyini görə bilməz; halbuki, bu dəyişiklik həddindən artıq vacibdir. Bu səbəbdən fərqinə varmaq lazımdır ki, həqiqətən də nə baş verdiyini / verə biləcəyini tam anlamaq üçün çevrə daxilində və çevrələr arasında kontakt, ünsiyyət və şəffaflıq həyati əhəmiyyətə malikdir.

Təklif etdiyimiz yanaşmada hər bir halqanın nümayəndələrinə görüş üçün vaxt və məkan verilmişdir. Onlar radikallaşma ilə bağlı məlumatlandırıcı və informativ materiallarla (məsələn, TERRA toplusunu təşkil edən vəsaitlər) təmin olunmuşdur. Onlar bu informasiyanı öz işlərinin əlaqədar aspekti üçün istifadə edən mövcüd şəbəkələr və ya radikallaşmaya xüsusi diqqət ayıran tamamilə yeni şəbəkələr ola bilərlər.

**TERRA vəsaitlər toplusu bir-birini tamamlayan və aşağıdakı kateqoriyadakı peşəkarlar üçün hazırlanmış vəsaitlərdən ibarətdir:**

- Müəllimlər və gənclərlə bağlı işçilər;
- İcma polis işçiləri;**
- Həbsxana, sınaq və şərti azadlıq işçiləri;**
- Dini liderlər;
- Yerli hökumət orqanları.

Vəsaitlər toplusu jurnalistləri ruhlandırmaqla yanaşı milli hökumətlərə siyasətlə bağlı tövsiyələr təqdim edir. **Bütün sənədlər www.terratoolkit.eu veb səhifəsindən pulsuz əldə edilə bilər.**

** TERRA-nın ingilis dilində olan versiyasında öz əksini tapan bu hissələr Azərbaycan dilində olan versiyaya daxil edilməmişdir.

*Radikallaşma və terrorizmlə mübarizədə biz demokratiya çərçivəsində uzun müddətli qlobal siyasətlər və proseslər haqqında düşünməli, milliyətçi düşüncələrin kənarına çıxmalıyıq.*

## 5 RADİKALLAŞMA NƏDİR?

“Radikallaşma” termininin tərifləri müəyyən mənada müxtəlifdir, çünki bu termin siyasi arenada istifadə olunur və bu müstəvidə tərif və anlayışların istifadəsində hərəkətverici məqam siyasi seçimlərdir. Akademik təriflər isə, müəyyən elmi istiqamətlərin çalarını özündə əks etdirir və bir çox hallarda bu növ təriflərdə dəqiqlik çatışmır. Əksər təriflərin müştərək cəhəti ondan ibarətdir ki, onlar tez-tez qrup proseslərinin təsirində formalaşan fərdi proseslərə istinad edirlər. Bu proseslər ərzində hakim siyasi düzən, eləcə də dialoq, kompromis və tolerantlıq dəyişiklik vasitəsi kimi inkar edilir. Bunun əvəzinə, müəyyən məqsədləri əldə etməyin daha müvafiq metodu kimi zorakılıq qəbul edilir. Beləliklə, müəyyən bir nöqtədə radikallaşma (mütləq olmasa da) terrorizmə apara bilər. Bu proses Fathali Moghaddam tərəfindən  TERRA vəsaitlər toplusunun mərkəzində də olan “pilləkan” modelində vizuallaşdırılmışdır.

**5-ci pillə**
Terror aktı və yayındırıcı qabaqlayıcı mexanizmlər

**4-cü pillə**
Kateqorik düşüncə və terror təşkilatının legitimliyinə dair qavrayışın qatılaşması

**3-cü pillə**
Əxlaqi (mənəvi) bağlılıq

**2-ci pillə**
Aqressiyanın yerdəyişməsi

**1-ci pillə**
Ədalətsiz, haqsız münasibət ilə mübarizədə qavranılmış seçimlər

**İlkin (zəmin) pillə**
Maddi durumun, şərtlərin psixoloji şərhi

Terrorizmə yüksələn pilləkan əsasında hazırlanmışdır (Moghaddam 2005).

VİDEOYA VEBDƏ BAX: **TerRaToolkit.eu**



**FATHALI MOGHADDAM**
PSİXOLOGİYA SAHƏSİ ÜZRƏ PROFESSOR
MÜNAQİŞƏLƏRİN HƏLLİ PROQRAMININ DİREKTORU
CORCTAUN UNİVERSİTETİ, ABŞ

"Pilləkan" modeli bir növ qərar vermə prosesini göstərir. Hər hansı bir radikallaşma prosesi bir pillədən digərinə doğru baş verən hərəkətdir. Hər bir “pillə”də müəyyən qapılar var; onlar açıla və ya açılmaya bilər. Şəxsin hər hansı bir pillədə qalacağı, yoxsa növbəti mərhələyə keçəcəyi təcrübə etdikləri qapı və məkanın açıq və ya qapalı olmasından asılıdır.  Pilləkandan yuxarıya doğru çıxanlar onlar üçün açıq olan seçimlərin get-gedə azaldığını görür. Əgər bu yeganə nəticə olmuş olarsa, bu o deməkdir ki, onlar özləri, digərləri və ya həm özləri, həm də digərlərinə zərər yetirirlər.

İlkin (zəmin) pillədə doğruluq və ədalətli münasibət elementləri çox əhəmiyyətlidir. Əgər bir şəxs və onun mənsub olduğu etnik, dini, siyasi və ya hətta peşə qrupu üzvlərinin digər qrupdan olanlarla eyni imtiyazlara malik olmadığını hiss edirsə, bu ədalətsizlik hissi fərdin davranışlarında rəhbər rol oynaya və onu pilləkanda yuxarıya doğru apara bilər. Situasiyaya legitim vasitələrlə təsir etmə imkanının olmaması hissi şəxsi birinci pilləyə qaldıra bilər ki, bu pilləni Moghaddam “ədalətsiz, haqsız münasibət ilə mübarizədə qavranılmış seçimlər” adlandırır. Bu pillədə fərdin pilləkanla yuxarıya doğru yüksəlməsinin qarşısı qəbul edilmiş ədalətsizliklə mübarizədə legitim yollara, vasitələrə çıxışın əldə olunması ilə alına bilər. Bu vasitələrə, məsələn, fərdin mənsub olduğu qrupun durumuna müsbət təsir edə biləcək hüquqi-məhkəmə araşdırması və ya demokratik proseslərdə iştirak imkanları aid oluna bilər. Əgər bu seçimlər şəxsə əlçatan deyilsə, onun ədalətsizliyə dair hissi daha da möhkəmələnə və onu növbəti pilləyə apara bilər.

İkinci pillədə, bəzi şəxslər hiss edirlər ki, məruz qaldıqları “ədalətsizliklər”lə legitim vasitələrlə mübarizə aparmaq olmur və bu subyektiv qavrayışlar yeni bir əxlaq (mənəvi prinsiplər) formalaşdırır.  Bu, şəxsin radikal ideologiya və ya həll yollarına maraq göstərdiyi məqamdır. Əslində, bu, hələ də nisbi olaraq zərərsizdir və radikal qrupun gəlişinə, yəni təklifin tələbi qarşılamasına qədər davam edir. Şəxs radikal qrupa qoşulmağa qərar verdiyi zaman o, üçüncü pilləyə qədəm qoyur.

“Əxlaqi (mənəvi) bağlılıq” adlanan üçüncü pillədə fərddə qrup düşüncəsi daha da inkişaf edərək onu ideal cəmiyyətin mümkünlüyünə və ona nail olmaq üçün istənilən vasitənin məqbul olduğu fikrinə inanmağa sövq edir. Terrorist təşkilata sadiqlik məhz bu mərhələdə baş verir.

Moghaddam hesab edir ki, əgər şəxs dördüncü pilləyə keçid edirsə, artıq “kateqorik düşüncə və terror təşkilatının legitimliyinə dair qavrayışın qatılaşması” həyata keçir. Bu mərhələdə radikal qrup və onun əxlaqi prinsipləri paralel olaraq fərdin gündəlik həyatı üçün əsas olmağa başlayır. Artıq o, həm qrupa cəlb edən şəxs, həm də qruplaşma lideri tərəfindən böyük ölçüdə müsbət diqqət gördüyü  terrorist qruplaşmanın üzvü kimi hərəkət edir. “Yalnız qurd” və ya “özü-özlüyündə inkişaf etdirilmiş” kateqoriyasına aid terrorist fərdlər və ya kiçik qruplar kimi hallarda davranışın möhkəmləndirilməsi daha çox internet üzərindən həyata keçirilir. Bu möhkəmlənmə eyni zamanda terrorist şəxs tərəfindən yaradılmış “paralel dünya” vasitəsilə də aparıla bilər ki, tamamilə gizli olan bu “dünya” cəmiyyəti şər və, o cümlədən, terrorist hücümların "haqlı" hədəfi olaraq görür.

Beşinci və sonuncu mərhələ “terror aktı və yayındırıcı qabaqlayıcı mexanizmlər”

adlanır. Bu mərhələdə şəxs artıq tək başına ("yalnız qurd") və ya terrorist təşkilatın kiçik qrupunun üzvü kimi inkişafını tamamlamış terroristdir və "onlar və biz" bölgüsündə sivil insanları "onlar" kateqoriyasına daxil edərək onlara qarşı zorakılığın istifadə olunmasını haqlı görür.

Terror aktı sivil insanların başqalarına zərər yetirməsinin qarşısını alan yayındırıcı mexanizmlər (məsələn, mərhəmət kimi) vasitəsilə, gözlənilmədən (anidən), düşmən əhaliyə qarşı törədilmiş hərəkət inancı ilə həyata keçirilir.

"Pilləkan" ilə irəli yönəlməyi TERRA-nın hədəf qrupları ilə birbaşa əlaqələndirmək üçün biz prosesi izah etmək məqsədilə aşağıdakı terminologiyadan istifadə edirik:

*RİSKLƏR VƏ DAYANIQLILIQ* zəmin mərtəbəni təsvir edir, adi vətəndaşda radikal ideyalara maraq oyada biləcək amilləri açıqlayır.

*RADİKAL İDEYALARA RƏĞBƏT BƏSLƏYƏN GƏNCLƏRLƏ İŞ* fərdin təcrübə edə biləcəyi və birinci mərtəbədə nümayiş etdirəcəyi ideologiyadakı dəyişiklikləri incələyir.

*ONLAR QOŞULMAQ ÜÇÜN RADİKAL QRUP AXTARIŞINDA OLARSA* Bu bölmə pilləkan modelinin ikinci pilləsinə aiddir. Bu mərhələdə təklif tələb ilə qovuşur və radikal qrup axtaran insanların həssas vəziyyətdəki insanlar axtarışında olan radikal qruplar ilə əlaqə yaranır.

*ONLAR RADİKAL QRUPA İNTEQRƏ OLARSA* bölməsi üçüncü pillədə, qrup üzvlüyünün təsdiqləndiyi mərhələdə nələrin ola biləcəyinə nəzər salır.

*ONLAR QATI RADİKALA ÇEVRİLƏRSƏ* hissəsi dördüncü və beşinci pillələrdə nəzərə çarpa biləcək indikatorları əhatə edir.

## 6 "İNDİKATORLAR"IN İSTİFADƏSİNƏ DAİR

TERRA vəsait toplusunun başlanğıc ideyası ondan ibarətdir ki, yuxarıda izah edilmiş proses müəyyən xüsusiyyətlərə malikdir və onlar radikallaşan şəxsin ətrafı üçün gec və ya tez aşkar olur. Məsələn, davranışda, istifadə olunan sözlərdə, xarici görünüş və ya dost seçimində dəyişikliklər bunlara aiddir. Bu dəyişikliklərin hansı ölçüdə izah edilmiş prosesin indikatorlarını təmsil etdiyini bilmək radikallaşmanın erkən müəyyənləşdirilməsinə imkan yaradır. Bu indikatorlar çərçivəsində düşünmək aldadıcı da ola bilər. Bu, bir mənada "radikallaşan şəxsi" müəyyən edən və bəzi xanaları işarələnmiş göstəricilər siyahısı təklif edə bilər ki, biz bundan qətiyyən çəkinməliyik. Bu səbəbdən biz burada indikatorlarla iş ilə bağlı bir neçə önəmli ümumi şərh bildirmək istərdik:

1. Radikallaşma trendləri ilə bağlı hazırlanmış proqramların dizaynında əsas vurğu hədəf gənc əhali arasında kimliyin (identikliyin) formalaşmasına verilir. Gənc və yeniyetmələrin identiklik və özünəhörmət ilə əlaqədar məsələlərdə dəstəkləməyi əsaslandırmaq asandır. Bununla belə, radikallaşmanın qarşısını almaq üçün məxsusi yanaşma ilə və bariz şəkildə bunu etmək hədəf gənclərin lüzumsuz

qaydada “radikal” olaraq damğalanmasına gətirib çıxara bilər. Bu səbəbdən, radikallaşmaya qarşı yönəlmiş hər bir cəhd əsaslı şəkildə müəyyənləşdirilmiş fərdləri təmsil edən böyük hədəf qrupuna tuşlanmalı və heç bir halda spesifik etnik və ya siyasi qrupu hədəf almamalıdır.

2. Burada **dəyişiklik** elementi müşahidə olunan indikatorların şərhi baxımından çox vacibdir. Bəzi indikatorlar hər hansı bir şəxsin normal davranışı ola bilər, bu zaman o, radikallaşma indikatoru kimi öz əhəmiyyətini itirir. Əgər hər hansı bir şəxs radikallaşma prosesindədirsə, müəyyən irəliləmə bariz şəkildə müşahidə olunmalıdır.
3. Hər hansı bir ehtimal olunan radikallaşma  yeganə indikatorla müəyyən edilə bilməz. O, ancaq əgər bir neçə indikator mövcuddursa, müəyyənləşdirilə bilər. Hər hansı bir işarə digər ətraf amillər nəzərə alınaraq aydınlaşdırılmalı və təsdiqlənməlidir.
4. Fərdin ümumi davranış nümunələrinin müşahidəsi çox həyati məsələdir. Diqqəti daha çox radikallaşmanın “özünəməxsus” indikatorlarına yönəltmək daha az səmərəlidir. Bu səbəbdən, biz ümumi icmaldan daha çoxunu əldə etmək məqsədilə peşəkarların hər hansı bir kazusu sahib olduqları perspektivdən çıxış edərək birgə müzakirə edə bildikləri icma yanaşmasını tövsiyə edirik.

# 7 TERRA VƏSAİTLƏRİNİN İCRASI

TERRA vəsaitlərinin icrası zamanı əgər bəzi amillər yerində olarsa, ən yüksək həddə səmərə əldə oluna bilər.

## GİZLİLİKLƏ BAĞLI MÜDDƏALAR

Bir çox Avropa ölkələrində radikallaşma, eləcə də təhlükəsizlik ilə bağlı qanun, hesabat və ya mərkəzlər mövcüddur. Bu, peşəkarlar arasında başqa bir platformada məxfi ola biləcək informasiyanın mübadiləsinə imkan verir. Bu mübadilə ilə bağlı ölkədə hansı qanunların mövcud olduğunu öyrənmək bu baxımdan çox vacibdir.

## EKSPERTLƏR

TERRA radikallaşma təhlükəsində ola biləcək şəxslərə dair peşəkar insanlar arasında informasiya mübadiləsini özündə əks etdirən icma yanaşmasına əsaslanır. Tövsiyə verə biləcək bir və ya bir neçə ekspertin cəlb olunması bu prosesdə rəhbərlik və dəstək üçün çox faydalı olardı. Bu insanlar müəyyən bir sahədən olan akademik ekspertlər, keçmiş radikalların özləri və ya bu mövzuda mütəxəssis olan digər şəxslər sırasından ola bilər.

Şəbəkə olaraq fəaliyyət radikallaşmaya həssas olan gənc insanları dəstəkləyəcək və onları təlimatlandıracaq doğru insanları müəyyən etməyə imkan verir. Əgər hər hansı bir şəxs qrupa inteqrə olubsa, bu zaman de-radikallaşma prosesinə ehtiyac vardır ki,

adətən bu da şəbəkənin imkanları daxilində olmur. Bu səbəbdən hər bir şəbəkənin gənc insanlara geriyə yol ilə bağlı təlim keçə biləcək və ya radikallaşma prosesi ilə işləyən peşəkarlar və valideynlərə kömək göstərə biləcək de-radikallaşma üzrə ekspertə ehtiyacı vardır.

## PEŞƏKARLAR ÜÇÜN TƏLİM

Peşəkarlar üçün təlim və məlumatlandırıcı fəaliyyətlər qabaqlayıcı addımlar baxımından əsaslı töhfələr verə bilər. Daha çox informasiya və resurs üçün, zəhmət olmazsa, TERRA-nın veb səhifəsinə baxın.

VƏSAİT BU LİNKDƏN ƏLDƏ EDİLƏ BİLƏR TerRaToolkit.eu

# VƏSAİT
# MÜƏLLİMLƏR VƏ GƏNCLƏR SAHƏSİ İŞÇİLƏRİ

**Radikallaşma** ***və sizin sahə ilə əlaqəsi.***

## MÜƏLLİMLƏR VƏ GƏNCLƏR SAHƏSİ İŞÇİLƏRİ ÜÇÜN VƏSAİT

*Bu vəsait bir gəncin radikallaşa biləcəyinin əlamətləri barədə məlumat, belə bir həssas məsələni müzakirə etmək məqsədilə onlarla necə əlaqə qurulması, eləcə də hüquq-mühafizə orqanları və sosial xidmət kimi digər sahələr üzrə peşəkarlarla birgə işləmək haqqında necə düşünə biləcəyinizə dair əməli tövsiyələri ehtiva edir. Vəsait Avropa miqyasında müxtəlif tərəfdaşların birgə həyata keçirdiyi radikalizmin öyrənilməsi və qarşısının alınmasına dair layihə olan TERRA tərəfindən hazırlanmışdır. Bu tövsiyə yerli və milli hökumətlər və radikallaşma təhlükəsi altında olan həssas vəziyyətdəki fərdlər və ya qruplarla peşəkar əlaqə quran mütəxəssislər üçün hazırlanmış yekun vəsaitlər toplusunun bir parçasıdır.*

MÜNDƏRİCAT


1 MƏQSƏDLƏR VƏ ARXA PLAN: RADİKALLAŞMA İLƏ İŞ 14
2 NİYƏ SİZ? 14
3 SİZİN ROLUNUZ NƏ OLA BİLƏR? 15
4 RİSKLƏR VƏ DAYANIQLILIQ 16
5 RADİKAL İDEYALARA RƏĞBƏT BƏSLƏYƏN GƏNCLƏRLƏ İŞ 18
6 ONLAR HƏQİQƏTƏN RADİKAL QRUPA QOŞULARSA 20
7 ONLAR RADİKAL QRUPA İNTEQRƏ OLARSA 22
8 ONLAR QATI RADİKALLARA ÇEVRİLƏRSƏ 23

## 1 MƏQSƏDLƏR VƏ ARXA PLAN: RADİKALLAŞMA İLƏ İŞ

Radikallaşma haqqında olan bu vəsait gənc insanlarla tez-tez əlaqə quran orta məktəb müəllimləri və digər peşəkarlar üçün yazılmışdır.

Ümid edirik ki, bunu oxuduğunuz zaman siz:

- Hədəf kütlənizdəki hər hansı bir şəxsin radikallaşma təhlükəsi altında olma ehtimalı haqqında daha çox məlumatlı olacaqsınız;
- Bu prosesin bəzi səbəblərinin nə ola biləcəyini biləcəksiniz;
- Bu prosesin bəzi mümkün əlamətlərinin nə olacağını biləcəksiniz;
- Bu prosesin müsbət nəticəyə doğru yönəldilməsinə təsir edə biləcək və həm sizin üçün, həm də narahat olduğunuz insanlar üçün dəstək təmin edə biləcək digər peşəkar qruplar haqqında xəbərdar olacaqsınız;
- Bu qruplarla əlaqə qurmaq və həssas vəziyyətdə ola biləcəyini düşündüyünüz insana yanaşmaq məsələsində özünüzü güclü hiss edəcəksiniz.

## 2 NİYƏ SİZ?

Kimlik (identiklik) axtarışında olan bir gənc böyük ölçüdə ətrafında olan insanların təsirinə düşə bilər. Mütəmadi olaraq peşəkar səviyyədə bu qrupla işləyən şəxs kimi siz, radikallığa diqqət yetirmək üçün çox əlverişli mövqedəsiniz. Siz onların davranış, xarici görünüş və sizinlə və ya həmyaşıd qrupları ilə qarşılıqlı əlaqələrindəki dəyişiklikləri müşahidə edə bilərsiniz. Radikallaşma təhlükəsi altında olan gənc insanın konteksti haqqında təsəvvürümüzün vizual forması aşağıdakı kimidir:



Hər çevrənin özünə xas əlaqələri və cəlb edilən həssas vəziyyətdəki insan üzərində müəyyən təsiri vardır. Davranışlarda, həmyaşıd qruplarda və ya ideologiyalardakı dəyişikliklər kənar çevrə ilə müqayisədə iç çevrədəki insanlar üçün daha aydındır. Məsələn, gənc insanın valideynləri oğlunun xarici görünüşündə etdiyi kəskin dəyişikliyi və tədricən əvvəlki həmyaşıd qruplarını tərk edərək yeni dostlarla görüşməyini görə bilər. Lakin oğlanı ilk dəfə görən polis məmuru onun ötən bir il ərzində nə qədər dəyişdiyini görə bilməyəcəkdir – halbuki, bu proses çox vacibdir. Buna görə də nə baş verə biləcəyini həqiqətən qavramaq üçün müvafiq çevrələr arasında əlaqə, kommunikasiya və şəffaflığı aydınlaşdırmaq çox əhəmiyyətlidir.

### NİYƏ GƏNC İNSANLAR?

Nəzəriyyədə hər kəsin potensial olaraq radikallaşa biləcəyi ehtimalına baxmayaraq tədqiqatlar göstərir ki, bəzi qruplar digərlərinə nisbətən bu təhlükə qarşısında daha həssas vəziyyətdədirlər. Terroristlərin əksəriyyəti adətən yeniyetmə və iyirmi yaşların ortasında olan gənc oğlanlardır. Terrorist fəaliyyəti həyəcan və şan-şöhrət ehtimalı ilə identiklik axtarışında olan gənc oğlanlar üçün cəlbedici sınaq yeri ola bilər. Həmçinin, kimlik axtarışı bütün yeniyetmələrin inkişafında rol oynayır. Radikal qruplar necə davranmaq və geyinmək barədə gizli təlimatlarla onları cəlb etmək üçün əvvəlcədən hazırlanmış hazır kimlik təklif edə bilərlər.

Faktiki olaraq yeniyetmə və gənc insanlar digər yaş qruplarına daxil olan insanlar ilə müqayisədə radikallaşmaya daha çox meyillidirlər və bu məqsədlə məktəb, ali təhsil müəssisəsi, islah müəssisələri və sosial işdə çalışan peşəkarlar tanış və daha əvvəl mövcud olmuş struktur konteksti daxilində müşahidələr aparmaq və onlara kömək etmək üçün xüsusi olaraq təyin ediliblər.

## 3 SİZİN ROLUNUZ NƏ OLA BİLƏR?

Siz peşənizin sizə verdiyi üstünlüklə bağlı olaraq təhlükə altında ola biləcək şəxsə çox yaxın olan daxili və ya ikinci dərəcəli çevrədə olursunuz. Siz onların qarşılıqlı əlaqələrini görür, böyümələrini və cəmiyyətdəki mövqeləri haqqında fikir və inanclarını, şəxsi identikliklərini və üzv olmaq üçün seçdikləri sosial qrupları müşahidə edirsiniz. Siz onların çətinliklə qarşılaşdıqları və ya böyüdükcə identiklik formalaşdırma prosesi zamanı problemlərlə üzləşdikləri təqdirdə üz tutacaqları insan ola bilərsiniz. Siz onların istedadlarına xüsusi əhəmiyyət verməklə və öz bacarıqlarını inkişaf etdirmək üçün həvəsləndirməklə müsbət identiklik formalaşdırmaqda onlara yardım edə bilərsiniz.

Biz sizə mütləq terrorizm sahəsi üzrə mütəxəssiz olmalısınınz məsləhətini vermirik, lakin siz artıq hədəf kütlənizdəki gənc insanlar üzrə mütəxəssissiniz və bu bacarıqlar vasitəsi ilə siz həyati rol oynaya bilərsiniz. Radikallaşma sahəsində fəal rola malik polis, sosial işçi və, əgər mümkünsə, uşağın ailəsi kimi digər peşəkarlarla əlaqə sizə narahatlığa səbəb olan və daha çox diqqəti zəruri edən dəyişikliklər arasında fərqi

*Mənim cəmiyyətə qarşı ifrat nifrətim var idi. Mən zorakılıq ilə böyümüşəm və zorakılıq problemlərimi həll etmək üçün istifadə etdiyim üsul olub.*

izah etməyə kömək edə biləcək. Narahat olduğunuz şəxslə əlaqə qurmağa dair qərar tək başına deyil, mümkün olduğu qədər digər peşəkarların dəstəyi ilə qəbul edilməlidir.

### NƏYİ SİZİN ROLUNUZ KİMİ GÖRMÜRÜK

Xüsusilə vurğulamalıyıq ki, bütün qutular işarələndiyi təqdirdə hər hansı bir şəxsin qəti olaraq radikallaşdığını deyən hər hansı "simptomlar" (əlamətlər) siyahısı mövcud deyil. Eləcə də, başa düşmək vacibdir ki, əgər kimsə radikallaşma prosesindədirsə, onun kimlik və aidiyyat duyğuları çox kövrək ola bilər və bu səbəbdən onunla bilavasitə və ya mənfi üsullarla əlaqə qurmaq problemi daha da dərinləşdirə bilər.

### NƏYƏ XÜSUSİ DİQQƏT YETİRMƏLİYİK?

Radikallaşma üzrə "simptomlar" siyahısı mövcud olmasa da radikallaşma prosesinin davam etdiyini göstərə biləcək bəzi əlamətlər vardır.

Radikallaşma prosesi çox sürətlə gedə, bir neçə həftə və ya illər ərzində tədricən inkişaf edə və ya bunlar arasında bir zamanda baş verə bilər. Bəzi insanlar aşağıdakı bütün xüsusiyyətləri daşıdığı halda digərləri onlardan sadəcə bir neçəsini daşıya bilər. Xatırlamaq vacibdir ki, adi davranışla müqayisədə həqiqətən yeni və fərqli olmadığı təqdirdə bu xüsusiyyətlərdən biri təkbaşına narahatlıq üçün əsas deyil. Lakin, bu xüsusiyyətlərin kombinasiyası həyəcan təbili çalmalıdır.

*Bir çox insan bu fərdiyyətçi dünya üçün yaxşı təchiz edilməmişdir. Onlar dəyişməz sərhədlər arayışındadırlar və əksər hallarda bu arayışın nəticəsini ekstremist qruplarda tapırlar. Onlar burada həyat və ya din barədə çox şey bilən və öz cavabdehliklərini üzərlərinə yıxa biləcəkləri yaşlı və ya həmyaşıdlarından ibarət bir cəmiyyət tapırlar. Bu qrupun irqçi "Ağ qürur" (White Pride), solçu ətraf mühit aktivisti və ya ekstremist dini hərəkat olmasının heç bir fərqi olmaya bilər – sərhədlər hələ də dəyişməz olaraq qalır.*

(Əlaqələndirici şəxs, sosial xidmət işçisi. Ekstremizmin qarşısını almaq, Danimarka məlumat kitabçası buraxılışı, Radikallaşmanın idarə edilməsi ilə bağlı 14 nümunə, Danimarka Sosial İşlər və İnteqrasiya Nazirliyi, Kopenhagen 2011, səhifə 13.)

## 4 RİSKLƏR VƏ DAYANIQLILIQ

Bu bölmə, bir insanın radikallaşma yoluna qədəm qoya biləcəyini aşkar edə biləcək arxa plana dair bəzi amillərə nəzər salır. Vurğulamaq istərdik ki, bu arxa plan amilləri heç də şəxsi avtomatik olaraq təhlükəli istiqamətə yönləndirmir. Məsələn, identiklik axtarışı müəyyən yaş üçün kifayət qədər normaldır. Bununla belə, arxa plan amillərindən xəbərdar olmaq vacibdir. Bu sizin dayanıqlıq formalaşdırmaq və qoruyucu amillər təklif etmək üçün daha məqsədyönlü yanaşma əldə etməyinizə kömək edəcəkdir.




**TOMAS RUNGE**
KEÇMİŞ SAĞÇI RADİKAL,
DÖYMƏ RƏSSAMI, DANİMARKA

## HƏSSAS VƏZİYYƏTDƏKİ ŞƏXS:

- Kimlik axtarışında ola bilər. Bütün yeniyetmələrin müəyyən dərəcədə bu prosesdən keçmələrinə baxmayaraq mənsubiyyətsizlik (aidiyyat yoxluğu) hiss edənlər xüsusilə həssas ola bilərlər. Necə davranmaq, geyinmək və hətta hansı musiqiyə qulaq asmaqla bağlı aydın qaydalar təqdim edən radikal qruplar aidiyyat yolu axtarışında olan gənc insan üçün çox cəlbedici ola bilər.
- Radikal qrup üzvü ilə əlaqəyə sahib ola bilər. Radikal qrup üzvü olan qardaşın (bacının), valideynin və ya yaxın dostun qrupunuzdakı şəxs üzərində təsiri daha çox olacaqdır. Bu şəxsin radikallaşma təhlükəsinin daha yüksək olduğundan xəbərdar olmaq hər zaman əhəmiyyətlidir.
- Həqiqi və ya diskriminasiya kimi qəbul edilə biləcək ayrı-seçkilik yaşaya bilər. Gənc insan irqçiliyə məruz qaldığı və ya digər etnik, dini yaxud da siyasi qrupa qarşı imtiyazlı davranış gördüyü təqdirdə inciyə bilər. Bu vəziyyət üçün qanuni həll yolu təklif olunmursa, şəxs həll yolunu başqa vasitə ilə tapacağı ümidi ilə radikal qrupa yönələ bilər.
- Özünə qapanmış, dostu olmayan və zorakılığa məruz qalmış ola bilər. Sosial olaraq təcrid edilmiş yeniyetmələr rahatlıq və qrup identikliyinin verdiyi havadarlıq axtarışında ola bilərlər.

## EDİN

- Güclü müsbət identiklik qurmaq üçün yardım edin. Şəxsin hobbi və istedadına maraq göstərin. İdman, rəsm və ya musiqi istedadı müsbət kimlik və potensial sosial qrup təmin edə bilər. Bacardığınız qədər aktiv şəkildə bu istedadların inkişafını dəstəkləyin; məsələn, idman qrupuna üzvlüyü, rol modeli insanlarla əlaqəni məsləhət görün və ya sadəcə maraq göstərin.
- Özünüzü dəstək və məsləhət üçün əlçatan edin.
- Xəbərdar olun ki, radikal qrup ilə sosial və ya ailə bağı olan gənc insanın radikallaşma təhlükəsi daha yüksəkdir. Bu əlaqələrin inkişafına xüsusi diqqət edin. Mümkün olduğu qədər onlarla ailə və ya sosial vəziyyətləri haqqında söhbətləşin; öz təcrübələrini paylaşa biləcəkləri yer və yardım təmin edin. Onların təcrübələrini xüsusi peşəkarlıq tələb edən sahə kimi görün və bu barədə onlarla məsləhətləşin. Mümkün olduğu qədər bu nümunəni TERRA-nın icma yanaşması tərəfindən göstərilən digər peşəkarlarla, yəni sosial işçilər, gənclər sahəsi işçiləri və hüquq-mühafizə personalı ilə müzakirə edin.
- İrqçilik və ya ayrı-seçkilik barədə hər hansı bir xəbərə qabaqlayıcı reaksiya verin. İlkin olaraq, hadisəni xəbər verən şəxslə araşdırın. Bu həqiqətdirmi, yoxsa həmin şəxs onun əleyhinə olan şərtlər altında yaşadığı hər hansı bir mənfi təcrübəni yanlışlıqla irqçilik olaraq qəbul edir? Bu halda həqiqi və təcrübə edilən ayrı-seçkilik arasında fərqi göstərmək vacibdir. Yenidən bu nümunələri icma yanaşması çərçivəsinin digər üzvləri ilə müzakirə edin.

*Təqdim etdikləri din versiyası özümü təcrid etmək və onların siyasi gündəliklərinin parçası olmaq üçün istifadə edildi.*

- Ayrı-seçkiliyin baş verdiyi ilə razılaşdığınız hallarda onu xəbər verən şəxsə balansı bərpa etmək üçün qanuni yolların (vasitələrin) mövcud olduğunu aydın şəkildə izah edin və əmin olun ki, bu vasitələrə əməl edilir. Ayrı-seçkiliyə məruz qalmış şəxslər bəzən onlara qarşı ayrı-seçkilik edən şəxsin mənfi emosiyalarını həmin şəxsin aid olduğu sosial qrupun bütün üzvlərinə şamil etməyə meyilli olurlar. Onların məruz qaldıqları ayrı-seçkiliyin ümumi sosial baxışı təmsil etmədiyini və sadəcə bir fərdin hərəkət və düşüncəsi olduğunu izah edin. Dəstəkləndiklərini və eşitdiklərini hiss etdiklərindən əmin olun.

## 5 RADİKAL İDEYALARA RƏĞBƏT BƏSLƏYƏN GƏNCLƏRLƏ İŞ

Radikallaşma yolunda atılan ilk addım ümumiyyətlə dərin məyusluq hisslərindən qaynaqlanır. Bəziləri belə bir hissə qapılır ki, mövcud sosial qruplar (dostlar, icma, etnik və ya dini qrup) onların məruz qaldıqlarını hiss etdikləri ayrı-seçkiliyə qarşı səmərəli mübarizə aparmır və buna görə də onlar ədalətsizliyə qarşı vuruşmaq üçün digər imkanlar axtarmağa başlayırlar. Bu, əsas istiqamətdən kənarlaşmanı, ayrı-seçkiliyi və məhrumiyyəti aradan qaldırmaq üçün tədbirlər görüldüyü hissini təmin edən qrupların axtarışını ifadə edir. Onlar radikal fikir və düşüncələrə artıq açıqdırlar.

Ailə üzvləri və ya peşəkarlar tərəfindən hər hansı dəstək olmadığı təqdirdə bu proses cavablar arayışı istiqamətində hərəkət edə bilər.

### BU MƏRHƏLƏDƏ HƏSSAS VƏZİYYƏTDƏKİ ŞƏXS:

- Öz şəxsi məqsəd və ambisiyalarını həyata keçirərkən üzləşdiyi uğursuzluğu sahib olduğu imkan və şərait və ya şəxsi müvəffəqiyyətsizliyi ilə deyil, məhz ayrı-seçkiliklə əlaqələndirmə tendensiyası nümayiş etdirə bilər. Məsələn, bir qrup orta məktəb şagirdlərinə iş təcrübəsi təyinatı tapmaq üçün təlimat verilir. Qrupdan bir nəfər təyinat yeri tapmaqda uğursuzluqla üzləşdiyi zaman uğursuzluğunun onun keyfiyyətlərinin yetərsiz və ya yerlərin məhdud olmasından deyil, sahib olduğu etnik, dini və ya sosial-iqtisadi mənsubiyyətdən qaynaqlandığını düşünə bilər. Bu güclü şəkildə özünü biruzə verən qəzəb, qorxu, nifrət və ikrah kimi xüsusi emosiyalarla nəticələnə bilər. Onlar bu hisslər haqqında danışa da, danışmaya da bilərlər. Ona görə də bilin ki, onların bu haqda danışmamaları heç də həmin hisslərin olmadığı kimi anlaşılmamalıdır.
- Səlahiyyətli orqanın (məktəb, polis, hökumət, və s.) legitimliyinə qarşı olan hissini itirdiyini nümayiş etdirə bilər. Yenə də, onlar bu düşüncələr haqqında danışa və ya danışmaya bilərlər.
- Qrup identikliyi ilə bağlı daha çox həssaslıq nümayiş etdirə (məsələn, “biz onlara qarşı” terminindən istifadə) və qruplar arasında rəqabət hissini inkişaf etdirə bilərlər. Onlar bu düşüncələr haqqında danışa və ya danışmaya bilərlər.

VİDEOYA VEBDƏ BAX:
**TerRaToolkit.eu**



**YASMİN MULBOCUS**
SABİQ EKSTREMİST
KRİMİNOLOGİYA ÜZRƏ BAKALAVR TƏLƏBƏ LAYİHƏSİ TƏŞƏBBÜSKARI,
QƏRBİ LONDON TƏŞƏBBÜSÜ, BİRLƏŞMİŞ KRALLIQ

---

- Daha geniş ictimaiyyətlə bağlı mənfi təcrübələrini bölüşən yeni insanlar və qruplar tərəfindən xarici təsir və fikirlərə xüsusilə açıq ola bilər. Əlverişsiz vəziyyətdə olma duyğusunu bölüşən digər şəxslər belə vəziyyətdə olma duyğusunu izah edə və onunla mübarizə aparmaq strategiyası üçün mühakimə təklif edə bilərlər. Sizin həmçinin şəxsin həmyaşıd qrupunda artıq ortaya çıxmağa başlamış bəzi dəyişiklikləri də görə bilmə imkanınız olacaq.
- Aydın kimlik təmin edən qrup axtarışında ola bilər. Siz artıq şəxsin görünüşündə bəzi dəyişikliklər görə bilərsiniz, lakin qrupa üzvlük sadəcə bir dəfə təsdiqləndiyi zaman heç bir şübhə qalmayacaq.
- Üzləşdiyi ədalətsizliyə qarşı mübarizədə yeni qrupun daha səmərəli olduğu və köhnə sosial qrupun və dostluqların səmərəli olmadığı hissinə qapıla bilər

## EDİN

- Mümkün olduğu qədər açıq və dözümlü (tolerant) ünsiyyəti təmin edin. Burada təsvir edilən proseslər əsasən psixolojidir və hələ fəaliyyətə çevrilməyib. Açıq dialoq davam etdirilməzsə, mütəmadi olaraq, hətta hər gün şəxsi görsəniz belə radikallaşma prosesinin toxumlarının səpildiyindən xəbəriniz olmaya bilər. Yuxarıdakı bölmədə verilmiş bütün emosiyalar haqqında danışmaq asan deyil, sadəcə yaxşı qurulmuş kommunikasiya bunu daha çox mümkün edə bilər. Sizin bu mərhələdəki dəstək və yardımınız vəziyyətin daha da pisləşməsinin qarşısını almaq üçün həlledici ola bilər.
- Əgər siz şəxsin həqiqətən ayrı-seçkilik baş vermədiyi təqdirdə şəxsi uğursuzluğunu ayrı-seçkiliyə aid etdiyini düşünürsünüzsə, o zaman ayrı-seçkilik anlayışına şübhə ilə yanaşmanız və onu sorğu-sual etməniz böyük əhəmiyyət kəsb edir. Yuxarıda verilmiş nümunədə olduği kimi, bir tələbəyə digər işəgötürən vasitəsilə iş təcrübəsi təyinatlı yeri tapmaq üçün fəal şəkildə yardım etmək kimi vəziyyəti daha da yaxşılaşdırmaq üçün olan təşəbbüsləri dəstəkləmək identiklik və aidiyyatın verdiyi yeri və müsbət duyğuları təsdiqləmək üçün çox əhəmiyyətlidir.
- Həssas vəziyyətdəki insanı onların öz qruplarından olan rol modellərlə əlaqələndirmək çox müsbət addım ola bilər. Bu, uğursuzluqları həmin qrupa qarşı ayrı-seçkiliyə istinad edən fikrə ciddi şəkildə meydan oxuya bilər.
- “Onlara qarşı biz” hissi, eləcə də ziddiyyətli hekayələrlə səlahiyyətli orqanların legitimliyinin olmadığına dair düşüncələrə qarşı çıxın, etiraz edin. Bunu, məsələn, müxtəlif qruplar arasında ortaq zəmini tapmaq və şəxsin ayrı-seçkiliyə məruz qaldığını düşündüyü qrupun müsbət tərəflərini vurğulamaqla edə bilərsiniz. Bu məsələlər üzərində tənqidi düşüncəni öyrətmək xüsusilə də internetdə təsiri altında qala biləcəkləri radikal hekayələri analiz etmək üçün həssas insanlara əlavə analitik vəsaitlər verə bilər.
- Məlumatınız olsun ki, radikallaşma prosesi öz-özünə dayana, sonlana bilər.

*Gənc eyni vəziyyətdə olmuş və onu doğru dəyərləndirə bilən, rol model ola biləcək şəxslər tərəfindən doğru istiqamətə yönləndirilməlidir.*

## ETMƏYİN

- Şəxsdə sanki onların məxsusi, mənfi diqqət nəticisində seçildikləri hissini yaratmayın.

*Məruz qaldığım zorakılıq, polis ayrı-seçkiliyi, Bosniya kimi xarici münaqişələr haqda məlumatlılıq şübhəsiz ki, mənim İslamçı mesajlara açıq olmama səbəb oldu. Mən ümidsizcəsinə cavab arayışında idim.*

(M. Navaz, Radikal 2012:78)

# 6 ONLAR HƏQİQƏTƏN RADİKAL QRUPA QOŞULARSA

Şəxs fəal şəkildə yeni üzvlər arayışında olan qrupla əlaqə qura bilər. Bu məqamda aydın kimlik və cəmiyyətin ədalətsizliyi ilə mübarizə aparmağa vasitələr təmin edən qrupa olan tələb ilə özünə fəal şəkildə üzv toplayan qrupların təklifi qovuşur. Bu, icma daxilində yeni üzlər və ya məktəb, yaxud da gənclərin getdikləri klubların ətrafında dolaşan yeni qruplar şəklində açıq-aydın görünə bilər. Prosesin bu mərhələsində şəxs onların qrup üzvlüyünə diqqət çəkmək və onun təklif etdiyi aydın identikliyi qəbul etmək üçün həvəsli olur. Beləliklə, dəyişiklik özünü güclü şəkildə büruzə verir. Misal üçün, siz aşağıdakıları müşahidə edə bilərsiniz:

- Xarici görünüşdə dəyişiklik. Buna müəyyən geyim tərzini mənimsəmək, saqqalın uzadılması, və ya saçın tamamilə kəsilməsi, bayraq və stikerlərin nümayişi, qrup mənsubiyyətini əks etdirən döymələr daxildir. Xüsusən də müəyyən etnik və ya dini qrupların adları üçün istifadə olunan qrup üçün səciyyəvi olan sözlərin istifadə edilməsi də geniş yayılmışdır.
- İdentikliyin, hətta adın dəyişilməsi.
- Davranışda dəyişiklik. Digər qrup üzvlərini və həmyaşıd qrupları, ailə və dostları qrup üzvlüyünü qazanmaq və təsdiqləmək üçün tərk etmək, spirtli içki içməyi və siqaret çəkməyi tərgitmək, qidalanmanı dəyişmək, dərsləri buraxmaq və ya mitinqlər kimi siyasi tədbirlərdə iştirak etmək kimi davranış dəyişiklikləri gözəçarpan ola bilər. Onlar qrupun ideologiyasını dəstəkləməkdə çox təsirli ola bilərlər və hətta qrup tərəfindən təklif edilən davranışı təsdiqləməyən üzvlüyü olmayanlara çağırış edə bilərlər.
- Həmyaşıd qruplarda dəyişiklik. Radikal qrupa cəlb edilən şəxs əvvəlki sosial qrup və ya asudə vaxt fəaliyyətlərindən uzaqlaşa və daha çox yeni qrupla əlaqəli fəaliyyətlərə qatılmağa başlaya bilər. Buna yeni dost və əməkdaş qrupu formalaşdırmaq da daxil ola bilər.
- Digər qrupların əksi olaraq öz qrupunun açıq-aydın tərifini vermək. Digər qruplara qarşı təhdidedici davranış.




**SOREN LERÇE**
SABİQ SOLÇU RADİKAL
FRYSHUSET TƏŞKİLATINDA MENECER, DANIMARKA

- Cəmiyyətə artan qəzəb hissi və cəmiyyətdə daha az iştirak. Bu baxış səsləndirilməsə də, insanların bir çoxu bu mərhələdə bu baxışı qismən qrup üzvlüklərini təsdiqləmək və qismən də imkan daxilində bilavasitə yeni üzvlər tapmaq məqsədi ilə paylaşacaqlar.
- Məktəbdə fəaliyyətin azalması. Bu, şəxsin diqqətinin başqa yerdə, ola bilsin ki, qrupun fəal üzvlüyündə olduğunu göstərə bilər. Bu, həmçinin radikallaşma prosesini də sürətləndirə bilər, çünki həmin şəxslər sadəcə akademik fəaliyyətə görə qiymətləndirildiyi təqdirdə məktəb mühitində özlərini evdəki kimi hiss etmədikləri üçün dərslərə gəlməyə az meyilli ola bilərlər. Radikal qrup isə cəlbedici alternativ fəaliyyətlər təmin edə bilər.

*Mən sağçılar tərəfindən əzilən bütün qruplar naminə mübarizə aparmaq istədiyimə görə solçulara hərəkata qoşuldum. Nəyə görəsə düşünürdüm ki, əgər bunu etməsəm sağçılar bütün ölkəni ələ keçirəcəklər  və belə olduqda isə o qruplar nələr edəcəkdilər? Mən onlar üçün mübarizə aparmasaydım bunu kim edəcəkdi?*

(Sol qanad ekstremist qrupun sabiq üzvü)

## EDİN

- Xəbəriniz olsun ki, xarici görünüş və həmyaşıd qruplardakı dəyişikliklərin (hətta olduqca kiçik dəyişikliklər olsa belə) kimlik axtarışında olan adi yeniyetmə üçün daha dərin əhəmiyyəti ola bilər. Əgər bunları müşahidə edirsinizsə, onları həmin şəxslə müzakirə etməyə çalışın ki, onların yaşadıqları haqqındakı kommunikasiya açıq qalsın.
- Bir şəxsin adi həmyaşıd qrupu ilə əlaqəsini kəsmək istədiyinin şahidi olduğunuz zaman həmin əlaqəni yenidən qurmaq və ya dəstəkləmək üçün nə edə biləcəyiniz haqqında fikirləşin.
- Şəxsi idman klubu, könüllü təşkilat, icma qrupu və ya (dinc) dini təşkilatlar kimi aydın identiklik təklif edən və əlverişsiz vəziyyətlər haqqında düşüncələr ilə müsbət vasitələrlə davranan digər qruplarla əlaqələndirin. Şəxsin istedad və hobbilərinə maraq göstərin və mümkün olduğu təqdirdə yardım edin.
- Məktəbdə əvvəllər olduğu qədər yaxşı qiymət almamaq və ya dərslərdə iştirak etməmək kimi problemlərin həllində fəal iştirak edin. Unutmayın ki, orada radikallaşma ilə əlaqə ola bilər. Xatırlamaq lazımdır ki, yetərsiz və qənaətbəxş olmayan akademik fəaliyyət üzərində həddindən artıq durmaq tələbəni ruhdan sala, eləcə də anlayış və dəstək axtarışında olanları radikal qruplara tərəf yönləndirə bilər. Buna görə də diqqətinizin geniş olduğundan və tələbənin nədən zövq aldığını və özlərini nədə ən yaxşı hiss etdiklərini soruşduğunuzdan əmin olun.
- Gənclər arasında radikal qruplar tərəfindən cəlb etmə cəhdləri zamanı istifadə edilə biləcək taktikalar, xüsusilə də qərəzli və emosional təsirə malik hekayələr haqqında məlumatlılığı artırın.

- Məktəb və ya gənclərin getdikləri klubları hədəf alaraq özlərinə yeni üzvlər tapmağa cəhd edəcək qrupların qarşısını almaq üçün hüquq-mühafizə orqanları, sosial işçilər, digər gənclər sahəsi işçiləri və dini liderləri fəaliyyətə cəlb edin.

## ETMƏYİN

- Şəxsə sanki onların xüsusi diqqət üçün seçildiklərini hiss etdirməyin. Bu məqamda onların kimlik duyğuları çox kövrək ola bilər və təhdid hissi onları artıq düşmən kimi qəbul etdikləri cəmiyyətdən daha da uzaqlaşmasına xidmət edə bilər.
- Təkbaşına, köməksiz müdaxilə etməyin. Belə etməniz problemi daha da dərinləşdirə bilər. Digər peşəkarlarla məsləhətləşin, narahat ola biləcəyiniz həddi qiymətləndirin və müvafiq qaydada hərəkət edin.

# 7 ONLAR RADİKAL QRUPA İNTEQRƏ OLARSA

Qrup seçildiyi zaman şəxs həmin qrupa üzvlüyünü təsdiqləmək üçün güclü istək hiss etməyə meyillənir. Verilmiş indikatorların əksəriyyəti - geyim tərzində dəyişiklik, təxəllüslərin istifadəsi, güclü biz-və-onlar yanaşması və ya fərqli danışıq seçimi özlərini daha açıq şəkildə göstərəcəklər.

### EKSTREMİST QRUPA ÜZVLÜYÜ GÖSTƏRƏ BİLƏN DİGƏR DİQQƏTƏLAYİQ DƏYİŞİKLİKLƏR:

- Cəmiyyət içində ədalətsizliyə qarşı zorakılığın bir vasitə olaraq legitim olduğuna dair fikir və düşüncə. Yenə də, prosesin bu mərhələsində bir çox insan öz görüşlərini kifayət qədər ucadan, açıq aydın olaraq səsləndirir.
- Digər insanları qrup qaydalarına riayət etməyə məcbur etmək və ya qrup tərəfindən təklif edilən davranışları təsdiqləməkdən çəkinən üzv olmayan insanlara qarşı çıxmaq.
- Qapalı görüşlərdə iştirak etmək.
- Təbliğat materiallarına sahib olmaq.
- Onların görüşlərini paylaşmayanlara qarşı nifrət ifadə etməkdə daha çox ifrata varmaq.
- Qrupu tərk etməyə çalışan digər qrup üzvlərini hədələmək.
- Radikal qrupla hazırkı ifrat əlaqələrinə görə məktəbdə və ya digər təşkilati fəaliyyətlərdə daha az iştirak etmək və görünmək.

## EDİN

- Bu əlamətləri ciddi qəbul edin.
- Şəxsin artan təcridçiliyinin qarşısını almağa çalışın. Mümkün olduğu qədər kommunikasiyanı davam etdirin.
- Mümkün olduğu qədər bu dəyişiklikləri həssas şəxsin ailəsi və həmyaşıd qrupu ilə müzakirə edin. Onlar hal-hazırda bu insanla kommunikasiyanı davam etdirmək və etdikləri seçimlərə qarşı çıxmaq üçün daha yaxşı mövqedə ola bilərlər.
- Köhnə qrup dostları ilə əlaqələri yenidən bərpa etməyə çalışın.
- Şəxsin radikallaşma prosesindən əvvəlki kimliyinə istinad edərək onun hələ də var olduğunu və həmin identikliyə geri qayıtmaq və onu yenidən qəbul etmək imkanının mümkün olduğunu göstərin.
- Qrup üzvlüyünün dəyərini müzakirə edin.
- Həssas şəxslər haqqında narahatlıqlarınızı paylaşmaq üçün hüquq-mühafizə orqanı əməkdaşlarını, digər gənclər sahəsi işçiləri və sosial işçiləri cəlb edin.
- Hüquq-mühafizə heyətinin sizin narahatlıqlarınızdan xəbərdar olduqlarından əmin olun. Bu mərhələdə həqiqətən təhlükəli və zorakı fəaliyyətlər başlaya bilər.
- Məktəbdə daha az görünməsinə və ya digər fəaliyyətlərdə daha az iştirak etməsinə baxmayaraq mümkün olduğu qədər həssas şəxslə əlaqənin itmədiyindən əmin olun.
- Radikallaşma prosesinin çox sadə olaraq özü-özünə yekunlaşacağı haqqında məlumatlı olun.

## 8 ONLAR QATI RADİKALLARA ÇEVRİLƏRSƏ

İnteqrasiya etdiyi zaman şəxs radikal qrupun fikir və fəaliyyətlərinin legitimliyinə daha çox inanmış olur. Bu zaman onlar ideoloji cəhətdən təsirə (beyin yuma) daha çox həssas olurlar, qrupun məqsədləri, eləcə də (zorakı) fəaliyyətlərinə hazırlıq haqqında daha çox düşünürlər. Bu mərhələdə onların fəaliyyətləri sizin nəzərinizdən kənarda baş verə bilər. Müəllim və ya gənclər sahəsi işçisi kimi sizin yeganə rolunuz öz narahatlıq və müşahidələrinizi hüquq-mühafizə əməkdaşlarına çatdırmaq ola bilər.
**Radikal şəxs**:

- hüquq-mühafizə əməkdaşları və digər peşəkar qrupların diqqətindən yayınmaq məqsədilə həmyaşıdları ilə qaynayıb qarışmaq cəhdi ilə daha ifrat “görünüşü” tərk edə bilər;
- qrupa yeni üzvlər cəlb edərək onlara təlim keçə bilər;

- hücum, ehtiyat toplamaq, kəşfiyyat-axtarış fəaliyyəti həyata keçirmək üçün real hazırlıqlar edə bilərlər;
- öz niyyəti haqqında yazılı və ya video materiallar hazırlaya bilər.

## EDİN

- Hüquq-mühafizə əməkdaşlarının sizin narahatlıqlarınızdan xəbərdar olduqlarından əmin olun. Bu mərhələdə həqiqətən təhlükəli və zorakı fəaliyyətlər başlaya bilər. Bu səbəbdən polisə xəbər vermək çox vacibdir.

## ETMƏYİN

- Güman edin ki, qrupla əlaqəli "görünüşün" tərk edilməsi mütləq ki, şəxsin qrup və ona inteqrasiyadan uzaqlaşmağı deməkdir. Faktiki olaraq, bu, doğru ola bilər, lakin, unutmayın ki, tamamilə bunun əksi də baş verə bilər.

Bu təlimat peşəkar əlaqədə olduğunuz qrup daxilində radikallaşmanın tanınması və qarşısının alınmasında sizə kömək etmək məqsədilə hazırlanmışdır. Əgər bu layihə haqqında daha çox məlumat və ya daha çox resurs əldə etmək istəyirsinizsə, zəhmət olmasa, bizim www.terra-net.eu veb səhifəmizi ziyarət edin

VƏSAİT BU LİNKDƏN ƏLDƏ EDİLƏ BİLƏR
TerRaToolkit.eu

# VƏSAİT **DİNİ LİDERLƏR**

***Radikallaşma***
*və sizin sahə ilə əlaqəsi.*

## DİNİ LİDERLƏR ÜÇÜN VƏSAİT

*Bu vəsait bir gəncin radikallaşa biləcəyinin əlamətləri barədə məlumat, belə bir həssas məsələni müzakirə etmək məqsədilə onlarla necə əlaqə qurulması, eləcə də hüquq-mühafizə orqanları və sosial xidmət kimi digər sahələr üzrə peşəkarlarla birgə işləmək haqqında necə düşünə biləcəyinizə dair əməli tövsiyələri ehtiva edir. Vəsait Avropa miqyasında müxtəlif tərəfdaşların birgə həyata keçirdiyi radikalizmin öyrənilməsi və qarşısının alınmasına dair layihə olan TERRA tərəfindən hazırlanmışdır. Bu tövsiyə yerli və milli hökumətlər və radikallaşma təhlükəsi altında olan həssas vəziyyətdəki fərdlər və ya qruplarla peşəkar əlaqə quran mütəxəssislər üçün hazırlanmış yekun vəsaitlər toplusunun bir parçasıdır.*

MÜNDƏRİCAT


| | | |
|---|---|---|
| 1 | MƏQSƏDLƏR VƏ ARXA PLAN: RADİKALLAŞMA İLƏ İŞ | 26 |
| 2 | NİYƏ SİZ? | 27 |
| 3 | SİZİN ROLUNUZ NƏ OLA BİLƏR? | 28 |
| 4 | RİSKLƏR VƏ DAYANIQLILIQ | 29 |
| 5 | RADİKAL İDEYALARA RƏĞBƏT BƏSLƏYƏN GƏNCLƏRLƏ İŞ | 30 |
| 6 | ONLAR HƏQİQƏTƏN RADİKAL QRUPA QOŞULARSA | 32 |
| 7 | ONLAR RADİKAL QRUPA İNTEQRƏ OLARSA | 34 |
| 8 | ONLAR QATI RADİKALLARA ÇEVRİLƏRSƏ | 35 |
| 9 | TƏRƏFDAŞLARI DƏSTƏKLƏMƏK | 36 |

# 1 MƏQSƏDLƏR VƏ ARXA PLAN: RADİKALLAŞMA İLƏ İŞ

Radikallaşma bir çox dini lideri narahat edən mövzudur. Dini lider kimi siz gənc insanların icmadan ayrılaraq radikal qruplara meyl etdiyini görür və ya öz uşaqları üçün narahat olan valideynlərlə rastlaşırsınız. Ola bilsin ki, siz yerli hökumət və ya hüquq-mühafizə orqanları tərəfindən əməkdaşlığa dəvət almısınız, lakin onların nə istədiyini və bunun sizin mövqeyiniz və icmanız üçün nə mənaya gəldiyini təxmin etmək çox çətindir.

Bu təlimatın məqsədi bu kimi mövzularla necə işləməyə dair sizə yardım göstərməkdir. Təlimat, bir gəncin radikallaşa biləcəyinə dair əlamətlər, onlara necə reaksiya vermək barədə bəzi əməli tövsiyələr, dayanıqlılıq yaratmaq məqsədilə icmanızdan necə istifadə etmək və valideynlərə necə dəstək olmaq haqqında məlumatlar təklif edir. Təlimat həmçinin, sosial xidmətlər və hüquq-mühafizə kimi digər tərəfdaşlarla birlikdə həyata keçirilən birgə yanaşmada sizin oynaya biləcək rolunuzu əks etdirir.

Bu vəsaiti hazırlmağımızın səbəbi dini radikallaşmanın Avropada böyüyən problem olmasıdır. TERRA vəsaitlər toplusundakı digər vəsaitlər fərqli səpgidə radikallaşmalara diqqət yetirir, lakin bu vəsait xüsusilə İslamçı ekstremizm haqqındadır. Təlimat bir imam və ilahiyyatçının da cəlb olunduğu tədqiqatçılar qrupu tərəfindən yazılmışdır.

**Ümid edirik ki, vəsaiti oxuduğunuz zaman siz:**

- İcmanızın hər hansı bir üzvünün radikallaşma təklükəsi altında olma ehtimalı haqqında daha çox xəbərdar olacaqsınız;
- Bu prosesin bəzi səbəblərinin nə ola biləcəyini biləcəksiniz;
- Bu prosesin bəzi mümkün əlamətlərinin nə olacağını biləcəksiniz;
- Həssas vəziyyətdəki şəxslər və onların ailələri ilə ünsiyyət zamanı əlamətlərin düzgün qavranmasında daha səriştəli hiss edəcəksiniz;
- Özünüz və dini icmanızın dayanıqlılığını necə gücləndirmək mövzusunda aydın fikirlərə sahib olacaqsınız;
- Bu prosesin müsbət nəticəyə doğru yönəlməsinə təsir edə biləcək və həm sizin, həm də narahat olduğunuz insanlar üçün dəstək təmin edə biləcək digər peşəkar qruplar haqqında xəbərdar olacaqsınız.

Qurandakı dini ekstremizmlə bağlı xəbərdarlığı xatırlayın: **“Öz dininizdə həddi aşmayın”**.[1] Müvafiq olaraq bu xəbərdarlığın iki dəfə verilməsi ola bilsin ki, hər qızıl ortanın (yaxşı və pis arasında tarazlıq mövqeyi) hər tərəfində həmişə iki ifratın olduğu reallığına işarədir.

Həmçinin, Peyğəmbər (Allahın Salatı və Salamı onun üzərinə olsun) ekstremizm təhlükəsinə qarşı dəfələrlə xəbərdarlıq etmiş və bu dünyada tarazlı mənəvi həyat

təmin edən və dağıdıcı ekstremizmə qarşı qoruyan əməli addımlar öyrətmişdir. Bu səpgidə Peyğəmbərin hədislərindən biri belədir: “Dində, sizdən əvvəlkiləri məhv edən, ifratçılıqdan ehtiyatlı olun.”[2]

## 2 NİYƏ SİZ?

Radikallaşma əsasən identiklik və məna axtarışı ilə əlaqəli dəyişiklik prosesidir. Mütəmadi olaraq məna və istiqamət axtarışında olan insanlarla işləyən biri kimi peşəniz sizi mümkün radikallaşma əlamətləri ilə qarşılaşa biləcəyiniz mövqeyə gətirir. Siz icmanızdan olan insanların davranışları, xarici görünüşləri, sizinlə və ya həmyaşıd qruplarla qarşılıqlı əlaqələrinin dəyişdiyini görə bilərsiniz.

Bizim radikallaşma təhlükəsi altında olan insanın konteksti haqqında vizual təsəvvürümüz belədir:




Hər çevrənin özünə xas əlaqələri və cəlb edilən həssas vəziyyətdəki insan üzərində müəyyən təsiri vardır. Davranışlarda, həmyaşıd qruplarda və ya ideologiyalardakı dəyişikliklər kənar çevrə ilə müqayisədə iç çevrədəki insanlar üçün daha aydındır. Məsələn, gənc insanın valideynləri oğlunun xarici görünüşündə etdiyi kəskin dəyişikliyi və tədricən əvvəlki həmyaşıd qruplarını tərk edərək yeni dostlarla görüşməyini görə bilər. Lakin oğlanı ilk dəfə görən polis məmuru onun ötən bir il ərzində nə qədər dəyişdiyini görə bilməyəcəkdir, halbuki, bu proses çox vacibdir. Buna görə də nə baş verə biləcəyini həqiqətən qavramaq üçün müvafiq çevrələr arasında əlaqə, kommunikasiya və şəffaflığı aydınlaşdırmaq çox əhəmiyyətlidir.

1. Quran, Nisa ( Qadın) surəsi, 4:171 və Maidə (Süfrə) surəsi, 5:80
2. Ahmad (nos. 1851 & 3248), Nasa’i, Ibn Majah, Hakim və digərləri- Sahih al-Jami’ al-Saghir of M.N. al-Albani, no. 2680 & Silsilah al-Ahadith al-Sahihah of M.N. al-Albani, no. 1283.

*Şər dünyada mövcuddur və bizim imtahanımız onunla üzləşmək və onu yaxşılığa çevirməkdir.*

## 3 SİZİN ROLUNUZ NƏ OLA BİLƏR?

Siz peşənizin sizə verdiyi üstünlüklə bağlı olaraq təhlükə altında ola biləcək şəxsə çox yaxın olan daxili və ya ikinci dərəcəli çevrədə olursunuz. Siz icmanızdakı gənc insanların böyüdüklərini və zamanla cəmiyyətdəki mövqeləri və şəxsi identiklikləri haqqında fikir və inanc formalaşdırdıqlarının şahidi olursunuz. Siz onların ailə konteksti ilə tanışsınız və onların seçdikləri həmyaşıd qruplardan xəbərdarsınız. Onların həyatın mənası ilə bağlı sualları olduğu və ya dinin müəyyən tərəflərini müzakirə etmək istədikləri təqdirdə üz tuta biləcəkləri insan siz ola bilərsiniz. Peyğəmbərin söylədiyi kimi: "Hər biriniz bir çobansınız və rəiyyətinizə görə məsuliyyət daşıyırsınız."

İcma təliminizdəki rolunuz zamanı siz gənclər arasında dayanıqlığa təkan verə, onların mübarizə apardıqları mövzuları əhatə edə, fərqləri göstərə bilərsiniz. Sizin təlimləriniz, eləcə də övladları radikal fikirlər inkişaf etdirdikləri zaman onlarla ideologiya haqqında müzakirələr aparmaq üçün valideynlərə də kömək ola bilər.
Bu məsələdə siz heç də tək deyilsiniz. Siz yeniyetmələrin öz identikliklərini inkişaf etdirmələri üçün təhlükəsiz məkan təklif etməyə bütün dini icmanı cəlb edə bilərsiniz. Həm də siz ona görə yalnız deyilsiniz ki, biz bu mövzuda sual və narahatlıqların müxtəlif sahələrdən olan mütəxəssislər tərəfindən paylaşılmasına imkan yaradan şəbəkə yanaşmasını təklif edirik.
Sizin heç də terrorizm üzrə mütəxəssis olmanız lazım deyil – lakin siz artıq icmanızdakı insanlar üçün təlim və qayğı üzrə mütəxəssissiniz və bu bacarıqlar vasitəsi ilə həyati rol oynaya bilərsiniz. Bununla yanaşı, siz həmçinin bilik və təcrübənizlə sosial işçilər, müəllimlər və polis məmurları kimi peşəkarların şəbəkələrinə çoxlu dəyər qata bilərsiniz. Sizin mədəni və dini adət-ənənələr və inanclar haqqında bilikləriniz həmin peşəkarlar tərəfindən şəxslə yarana biləcək məsələləri doğru şəkildə şərh etməyə və mövcud vəziyyətdə müvafiq yanaşmanı seçməyə kömək edə bilər.

*Yaxşılıq etməkdə və pis əməllərdən çəkinməkdə əlbir olun, günah iş görməkdə və düşmənçilik etməkdə bir-birinizə kömək göstərməyin.*
[Quran 5:2]

Radikallaşmada rol oynayan mexanizmlər haqqında zəruri anlayışlara sahib olmaq faydalı ola bilər. Narahatedici əlamətlərin nə ola biləcəyini göstərməklə yanaşı bu təlimatın nümayiş etdirdiyi də məhz budur. Vurğulamaq çox vacibdir ki, bütün qutular işarələndiyi təqdirdə hər hansı bir şəxsin qəti olaraq radikallaşdığını deyən "simptomlar" (əlamətlər) siyahısı mövcud deyil. Lakin radikallaşma prosesinin davam etdiyini göstərə biləcək bəzi əlamətlər var. Radikallaşan şəxs davranışında dəyişikliyə səbəb olan psixoloji bir prosesdən keçir (məsələn, hökumətə qarşı davranışında dəyişiklik). Radikallaşma prosesində qrup təsiri də həmçinin çox vacibdir. Bu səbəbdən sizə qruplaşmalara üzvlərin cəlb edilməsi, ailə bağları və əsas istiqamətdən uzaqlaşan qruplara qarşı sayıq olmalısınız.

Radikallaşma prosesi çox sürətlə gedə, bir neçə həftə və ya illər ərzində tədricən inkişaf edə və ya bunlar arasında bir zamanda baş verə bilər. Bəzi insanlar aşağıdakı

VİDEOYA VEBDƏ BAX:
TerRaToolkit.eu



**USAMA HASAN**
KEÇMİŞ RADİKAL
QUILLIAM FONDUNDA BAŞ ELMİ İŞÇİ,
BİRLƏŞMİŞ KRALIIQ

bütün xüsusiyyətləri daşıdığı halda digərləri onlardan sadəcə bir neçəsini daşıya bilər. İndikatorların eyni zamanda meydana gələ bildiyini, o cümlədən hər hansı mövcud vəziyyət üçün onlardan yalnız bir və ya ikisinin müvafiq ola biləcəyini görə bilərsiniz. Bütün mənzərəni görmənizə ehtiyac yoxdur. Narahatlığınızı hər zaman digərləri ilə paylaşın.

# 4 RİSKLƏR VƏ DAYANIQLILIQ

Bu bölmə, bir insanın radikallaşma yoluna qədəm qoya biləcəyini aşkar edə biləcək arxa plana dair bəzi amillərə nəzər salır. Vurğulamaq istərdik ki, bu arxa plan amilləri heç də şəxsi avtomatik olaraq təhlükəli istiqamətə yönləndirmir. Məsələn, identiklik axtarışı müəyyən yaş üçün kifayət qədər normaldır. Bununla belə, arxa plan amillərindən xəbərdar olmaq vacibdir. Bu sizin dayanıqlıq formalaşdırmaq və qoruyucu amillər təklif etmək üçün daha məqsədyönlü yanaşma əldə etməyinizə kömək edəcəkdir. Bölmə həmçinin sizin xütbənizdə və gənclərlə əlaqələrinizdə həmin mübarizələrin vaxtında əhatə edilməsinin vacibliyini vurğulayır.

**Radikal qrupların təsirinə həssas ola biləcək şəxslər:**

- İdentikliklə mübarizə apara bilər. Xüsusilə iki kimlik (onlar müsəlmandırlar, lakin eyni zamanda aid olduqları Avropa cəmiyyətinin bir hissəsi olduqlarını hiss edirlər) daşıyan gənc insanların diqqətə ehtiyacı var. Problemləri nəzərə alınmadığı təqdirdə onlar çox vaxt özlərini kənarlaşdırılmış hiss edirlər. İdentiklik axtarışı çox təbiidir və bu barədə Allah belə buyurur “Sonra bir-birinizi tanıyasınız (kimliyinizi biləsiniz) deyə, sizi xalqlara və qəbilələrə ayırdıq...” [Quran 49:13]
- Radikal qrup üzvü ilə əlaqəsi ola bilər. Radikal qrup üzvü olan qardaşın (bacının), valideynin və ya yaxın dostun qrupunuzdakı şəxs üzərində təsiri daha çox olacaqdır. Peyğəmbərin (Allahın Salatı və Salamı onun üzərinə olsun) söylədiyi kimi: “İnsan öz yaxın dostunun dinindədir. Belə isə, hər biriniz kiminlə yaxın dostluq etdiyinizin fərqində olun.”
- Həqiqi və ya hissedilən ayrı-seçkilik yaşaya bilər. Gənc insan irqçiliyə məruz qaldığı və ya digər etnik, dini yaxud da siyasi qrupa qarşı imtiyazlı davranış gördüyü təqdirdə inciyə bilər. Bu vəziyyət üçün qanuni həll yolu təklif olunmursa, bu şəxs həll yolunu başqa vasitə ilə tapacağı ümidi ilə radikal qrupa meyil edə bilər.

*Məruz qaldığım zorakılıq, polis ayrı-seçkiliyi, Bosniya kimi xarici münaqişələrdən məlumatlılıq şübhəsiz ki, mənim İslamçı mesajlara açıq olmama səbəb oldu. Mən ümidsizcəsinə cavab arayışında idim.*

(M. Navaz, Radikal 2012:78)

## EDİN

- İnam qazanmaq üçün çalışın. Dini hakimiyyətə (quruma) inam gənc nəsil arasında sübutsuz, dəlilsiz qəbul edilmir. Sadəcə inam yarandıqdan sonra siz gənc insanlara öz identikliklərini inkişaf etdirmək üçün müsbət yollar və təhlükəsiz mühit təklif edə bilərsiniz. Peyğəmbərin (Allahın Salatı və Salamı onun üzərinə olsun) söylədiyi kimi: "Gənclərə şəfqət göstərin."
- Radikal qrupla sosial və ya ailə bağları olan gənclərin inkişafına daha çox diqqət göstərin.
- Davamlılığı stimullaşdırın:
  - Xütbələrinizdə gəncləri ehtiva etmək üçün onların anlayacağı üslubda və onların məşğul olduqları problemlərə xitab edərək danışın.
  - Hakim ənənənin və şəriət biliklərinin öyrənilməsinə səy göstərin.
  - İcmanızı gənc insanların identiklik mübarizələrində onlara dəstək olmaları üçün həvəsləndirin (məsələn, onlar şəxslərin istedadlarını inkişaf etdirmələri üçün mentorluq edə və ya imkanlar yarada bilərlər). Gənc qrupları və sosial fəaliyyətləri dəstəkləmək müsbət identiklik və potensial sosial qrup təmin edə bilər. Faktiki olaraq, bir çox dini icmalar artıq bunu edirlər. Bunun birbaşa radikallaşmanın qarşısının alınması ilə əlaqədar olmasına ehtiyac yoxdur – olmasa daha yaxşı olar.
  - Ayrı-seçkilik haqqında xəbər vermək və onun qarşısını almaq üçün ölkənizdəki qanuni yollardan (vasitələrdən) xəbərdar olun. Ayrı-seçkiliyin baş verdiyi ilə razılaşdığınız hallarda bu yolları onu xəbər verən insana göstərə bilərsiniz. "İnsafla hərəkət edin. Şübhəsiz ki, Allah insaflıları sevər." [Quran 49:9]

# 5 RADİKAL İDEYALARA RƏĞBƏT BƏSLƏYƏN GƏNCLƏRLƏ İŞ

Radikallaşma yolunda atılan ilk addım ümumiyyətlə dərin məyusluq hisslərindən qaynaqlanır. Bəziləri belə bir hissə qapılır ki, mövcud sosial qrupları (dostlar, icma, etnik və ya dini qrup) onların məruz qaldıqlarını hiss etdikləri ayrı-seçkiliyə qarşı səmərəli mübarizə aparmır və buna görə də onlar ədalətsizliyə qarşı vuruşmaq üçün digər imkanlar axtarmağa başlayırlar. Bu əsas istiqamətdən kənarlaşmanı və ayrı-seçkiliyi və məhrumiyyəti aradan qaldırmaq üçün tədbirlər görüldüyü hissini təmin edən qruplar axtarışını ifadə edir. Onlar radikal fikir və düşüncələrə artıq açıqdırlar.

**Bu, aşağıda verilənlərlə ifadə edilə bilər:**

- Aşağı səviyyədə özü-özünə yetərlilik hissi və öz şəxsi məqsəd və ambisiyalarını həyata keçirərkən üzləşdiyi uğursuzluğu sahib olduğu imkan, şərait və ya şəxsi müvəffəqiyyətsizliyi ilə deyil, məhz ayrı-seçkiliklə əlaqələndirmə tendensiyası nümayiş etdirə bilər. Bu, güclü şəkildə özünü biruzə verən qəzəb, qorxu, nifrət və ikrah kimi xüsusi emosiyalarla nəticələnə bilər. Səlahiyyətli orqanın (məktəb, polis, hökümət, və s.)

legitimliyi ilə bağlı hissini itirdiyini nümayiş etdirə bilər və onun əvəzinə, o, yeni ideoloji lider və ya rol modellər müəyyən edə bilər.

- Qrup identikliyi ilə bağlı daha çox həssaslıq nümayiş etdirə və qruplar arasında rəqabət hissini inkişaf etdirə bilərlər. Bu, məsələn "biz onlara qarşı" terminindən istifadə etmək və ya 'təhdidlər' bildirməklə ifadə edilə bilər.
- Şəriət və cihadın izah edilməsində mübahisəli davranış və təxribatçı suallar.
- Başına onun həyatında yüksək təsiri olan bir hadisə (məsələn, qəflətən yaxın insanı itirmək, mədəni və ya dini dəyərləri ciddi təzyiq altına qoyan mürəkkəb dilemma, uğursuzluq, ayrılma və s.) gələ bilər. Özlüyündə bu radikallaşma üçün səbəb və ya əsas deyil, lakin bu prosesi sürətləndirə bilər – belə hadisələr 'dönüş nöqtəsi' və ya 'katalizator hadisə' hesab edilə bilər.

## EDİN

- Mümkün olduğu qədər açıq və dözümlü (tolerant) kommunikasiyanı təmin edin. Gənclərdən hər zaman bir tərəfi seçmələri və ya özlərini sadəcə din, yaxud da milliyət çərçivəsində xarakterizə etmələrini istəməyin. Onlara İslamın insanlığın birliyini vurğulayan "Adəmin övladları" vurğusunu xatırladın. (Quran 49:13.) Bu mərhələdə proseslər əsasən psixolojidir və hələ fəaliyyətə çevrilməyib. Xatırlayın ki, Peyğəmbərlər və Allahın elçilərinin əsas vəzifələrindən biri insanların özlərini saflaşdırmaları və inkişaf etdirmələrinə (tazkiyat al-nafs) kömək etməkdir.
- Əgər siz şəxsin həqiqətən ayrı-seçkilik baş vermədiyi təqdirdə şəxsi uğursuzluğunu ayrı-seçkiliyə aid etdiyini düşünürsünüzsə, o zaman ayrı-seçkilik anlayışına şübhə ilə yanaşmanız və sorğu-sual etməniz böyük əhəmiyyət kəsb edir. Vəziyyəti yaxşılaşdırmaq üçün dəstəkləyici təşəbbüslər cəmiyyətdə identiklik və aidiyyatın müsbət duyğularını təsdiqləmək üçün vacib ola bilər. Onlara Quranın digərlərinə, hətta düşmənləriniz və müxaliflərinizə qarşı ədalətli olun buyruğunu xatırladın: "Ey iman gətirənlər! ... Hər hansı bir camaata qarşı olan kininiz sizi ədalətsizliyə sövq etməsin. Ədalətli olun. Bu, təqvaya daha yaxındır..." (5:8)
- Həssas vəziyyətdəki insanı onların öz qruplarından olan rol modellərlə əlaqələndirmək çox müsbət addım ola bilər. Bu, uğursuzluqları həmin qrupa qarşı ayrı-seçkiliyə istinad edən fikrə ciddi olaraq meydan oxuya bilər.
- Öz xütbələrinizdə icma üzvlərinin cəmiyyətdəki roluna istinad edərək, radikallaşma və icmanın təklif edə biləcəyi əks tədbirlər haqqında bilikləri paylaşaraq icmanızın "biz onlara qarşı" düşüncəsinə meydan oxumalarına dəstək göstərin. Onlara Qurana görə bizim "Adəmin övladları" kimi ümumi insanlıq anlayışına sahib olduğumuzu və digərlərinə, hətta düşmən və müxaliflərimizə qarşı ədalətli olmalı olduğumuzu xatırladın. Təriqətçilik və qəbiləçilik Quranın ruhuna ziddir. (6:159, 16:92)
- Xüsusilə də internetdə təsiri altında qala biləcəkləri radikal hekayələri analiz etmək üçün vasitələr təklif edən tənqidi və müfəssəl düşüncəni aşılayın.
- Ağır zamanlar keçirən gənclərə onların siz və icmanız tərəfindən dəstəkləndiyini hiss

*Zorakılığın nəticələri var və gənc insan olaraq bu nəticələrə göz yuma bilərsiniz, lakin gələcəkdə nə vaxtsa, əgər sağ qalsanız, onlarla üzləşməli olacaqsınız.*

etdirin. Peyğəmbərin (Allahın Salatı və Salamı onun üzərinə olsun) söylədiyi kimi: "Gənclərə şəfqət göstərin." Ağır zamanlardan keçən insanların mənəvi və dini dəstəyə ehtiyacları olur. Məsələn, "Heç şübhə yoxdur ki, səbr ilk anda olan səbrdir" (hədis); "Əlbəttə, Biz sizi bir az qorxu, bir az aclıq, bir az da mal, can (övlad) və məhsul qıtlığı ilə imtahan edərik. (Ya Rəsulum! Belə imtahanlara) səbr edən şəxslərə müjdə ver! O kəslər ki, başlarına bir müsibət gəldiyi zaman: "Biz Allahınıq (Allahın bəndələriyik) və (öləndən sonra) Ona tərəf (Onun dərgahına) qayıdacağıq!" deyirlər. Onları Rəbbi tərəfindən bağışlanmaq və rəhmət (Cənnət) gözləyir. Onlar doğru yolda olanlardır!" [Qur'an 2:155-157]

- Müəyyən hadisələrin mümkün təsirləri haqqında narahatlıqlarınızı şəbəkənizdə olan digər peşəkarlarla paylaşın. Xüsusilə, əsas dini dəyərlərə toxunan məsələlər zamanı siz onlarla müqayisədə həqiqi təsirlər barədə daha yaxşı anlayışa sahib ola bilərsiniz. Sizin verdiyiniz məlumat həmçinin şəxsi düzgün istiqamətdə dəstəkləmək üçün onlara kömək ola bilər.

## 6 ONLAR HƏQİQƏTƏN RADİKAL QRUPA QOŞULARSA

Şəxs fəal şəkildə yeni üzvlər arayışında olan qrupla əlaqə qura bilər. Bu məqamda aydın kimlik və cəmiyyətin ədalətsizliyi ilə mübarizə aparmaq üçün vasitələr (yollar) təmin edən qrupa olan tələblə təklif – özünə fəal şəkildə üzv toplayan qruplar qovuşur. Bu proses zamanı çox vacib məqamdır. Qrupa cəlb edildikdən sonra geri dönmək çox çətin olur. Bu mərhələdə şəxs onların qrup üzvlüyünə diqqət çəkmək və onun təklif etdiyi aydın identikliyi qəbul etmək üçün həvəsli olur və beləliklə dəyişiklik həddindən artıq aydın olur.

**Radikal qrupa qoşulmaq özünü aşağıdakılarda göstərə bilər:**

- **Nitqdə:**
  - Yeni qrupla yaxınlıq;
  - Fərqli sözlər seçimi, xüsusilə digər dini və ya etnik qrupları təsvir etmək üçün istifadə olunan sözlər seçildikdə.
  - Şəxsi hekayələrində dəyişiklik, onların radikal hekayələr kontekstində qurulması;
  - Bir zamanlar üzvü olduğu qrupun səmərəliyi, adət-ənənələri və ya inancları haqqında açıq-aşkar tənqidi yaxud da mənfi düşüncə.

- **Davranışlarda:**
  - Radikal qrupların liderləri ilə tez-tez təmas arayışında olmaq və ya əlaqə qurmaq;
  - Dini rituallarda dəyişiklik, məsələn ibadətdə ifrat artış, qiyamətlə bağlı inanclar haqqında güclü vurğular;
  - Adlarda dəyişikliklər, təxəllüslərin istifadə edilməsi

- **Fiziki görünüşdəki dəyişikliklər, dini və ya radikal veb səhifələrdə keçirilən vaxtın çoxalması:**
  - Geyim və ya saç tərzi ilə bağlı göstərişlərə ani bağlılığın çoxalması;

– Geyim və ya şəxsi atributlarda cihadçı qrupların simvollarından istifadə edilməsi.

Cəlbetmənin baş verməsi icmada yeni üzlər və ya məscid ətrafında dolaşan yeni qruplar halında özünü göstərə bilər. Qrupa yeni üzvlər cəlb etməkdən məsul şəxslər insanların toplaşdığı məkanlar olaraq məscidləri, xüsusən də ilkin təmas (əlaqə) üçün istifadə edə bilərlər. İlkin təmas qurulandan sonra onlar adətən məscidlərə gəlmirlər və cəlbetməyə şəxsi mənzillər və əvəzləyici ibadət zalları kimi qapalı məkanlarda davam edirlər. Belə ki, gənc insanların qəflətən və ya yavaş-yavaş cəmiyyətdən uzaq gəzməyə meyilli olduqları zaman həyəcan siqnalı çalmaq lazım ola bilər.

## EDİN

- Xəbəriniz olsun ki, xarici görünüş və həmyaşıd qruplardakı dəyişikliklərin (hətta olduqca kiçik dəyişikliklər olsa belə) identiklik axtarışında olan adi yeniyetmə üçün normal ola bilər, lakin bu, eyni zamanda daha dərinə də gedə bilər. Əgər bunları müşahidə edirsinizsə, onları həmin şəxslə müzakirə etməyə çalışın ki, onların prosesləri haqqındakı kommunikasiya açıq qalsın.
- Şəxs sizin inanc və dəyərlərinizə meydan oxumağa başladığı zaman səmimi müzakirəyə açıq olun. Peyğəmbərin (Allahın Salatı və Salamı onun üzərinə olsun) söylədiyi kimi “din səmimiyyətdir.” Sadəcə idrak (qavrayış) səviyyəsinə ilişib qalmayın; eyni zamanda emosiya, davranış və onlarla əlaqəli olan qrup proseslərinə diqqət yetirin. İdeologiya öz-özlüyündə radikallaşmaya səbəb olmaz. Lakin qrup əlaqəsi və ya zorakı hisslərin legitimləşdirilməsi vasitəsi kimi o, radikallaşma prosesinin təsirli hissəsi ola bilər.
- Gənclər arasında radikal qruplar tərəfindən cəlbetmə cəhdləri zamanı istifadə edilə biləcək taktikalar, xüsusilə də qərəzli və emosional təsirə malik hekayələr haqqında məlumatlılığı artırın.
- Məscid içində bir qrupun radikallaşması və ya radikal qruplaşmaya cəlb edilməsindən şübhələnirsinizsə, səlahiyyətli orqanlardan ehtiyat etdikləri üçün onlardan uzaqlaşmağınız deyil, əksinə qrupla təmasda qalmağınız və asanlıqla onların təcrid edilmələrinin qarşısını almanız tövsiyə edilir.
- İbadət yerlərini hədəf alaraq yeni üzvlər tapmağa cəhd edəcək qruplarla mübarizəyə sosial işçilər, gənclər sahəsi işçiləri və (vəziyyətdən asılı olaraq) hətta hüquq-mühafizə orqanlarını da cəlb edin.

## ETMƏYİN

- Şəxsə sanki onların xüsusi diqqət üçün seçildiklərini hiss etdirməyin. Bu məqamda onların kimlik duyğuları çox kövrək ola bilər və təhdid hissi onları artıq düşmən kimi qəbul etdikləri cəmiyyətdən sadəcə daha da soyutmağa xidmət edə bilər. Peyğəmbərin (Allahın Salatı və Salamı onun üzərinə olsun) söylədiyi kimi “Zərif, kövrək və billur kimi qəlbi olanlarla mülayim rəftar edin.”

# 7 ONLAR RADİKAL QRUPA İNTEQRƏ OLARSA

Qrup seçildiyi zaman şəxs həmin qrupa üzvlüyünü təsdiqləmək üçün güclü istək hiss etməyə meyillənir. Verilmiş indikatorların əksəriyyəti - geyim tərzində dəyişiklik, təxəllüslərin istifadəsi, güclü biz-və-onlar yanaşması və ya fərqli söz seçimi özlərini daha açıq şəkildə göstərəcək.

**Ekstremist qrupa üzvlüyü göstərə bilən digər diqqətə layiq dəyişikliklər:**

- Digər insanları qrup qaydalarına riayət etməyə məcbur etmək və ya qrup tərəfindən təklif edilən davranışları təsdiqləməkdən çəkinən üzv olmayan insanlara qarşı çıxmaq.
- Qapalı görüşlərdə iştirak etmək.
- Təbliğat materiallarına sahib olmaq.
- Əvvəlki sosial qrup və ya asudə vaxt fəaliyyətlərindən uzaqlaşmaq və daha çox yeni qrupla əlaqəli fəaliyyətlərdə iştirak etmək.
- Cəmiyyətə artan qəzəb hissi və cəmiyyətdə daha az iştirak. İnsanların bir çoxu bu mərhələdə bu görüşü qismən qrup üzvlüklərini təsdiqləmək və qismən də imkan daxilində bilavasitə yeni üzvlər tapmaq məqsədi ilə paylaşacaqlar. Qeyd edək ki, bu onların mənəvi tarazlıqları üçün çox ziyanlıdır: Peyğəmbərin (Allahın Salatı və Salamı onun üzərinə olsun) söylədiyi kimi “bir insan ‘İnsanlar viran oldular’ söylədiyi təqdirdə özü ən çox viran olandır.”
- Cəmiyyət daxilindəki ədalətsizliyə qarşı zorakılığın bir vasitə olaraq legitim olduğuna dair duyğu. Onlar hakimiyyəti, səlahiyyətli orqanları tanımadıqlarını göstərmək üçün kiçik cinayətlər törədə bilərlər. Peyğəmbərin (Allahın Salatı və Salamı onun üzərinə olsun) “şəri əl ilə düzəldin” buyuruğunun şəxslər və ya öz düşüncəsinə görə vəziyyəti düzəltməyə çalışan qeyri-qanuni qruplaşmalara deyil, polis və ordu kimi qanuni, legitim qüvvələrə şamil edildiyi öyrədilməlidir.

## EDİN

- Bu əlamətləri ciddi qəbul edin.
- Şəxsin artan təcridçiliyinin qarşısını almağa çalışın. Mümkün olduğu qədər kommunikasiyanı davam etdirin.
- Onları sosial və asudə vaxt fəaliyyətlərini davam etdirmələri üçün cəsarətləndirin. Peyğəmbərin (Allahın Salatı və Salamı onun üzərinə olsun) söylədiyi kimi, “hər şeyin öz vaxtı var,” yəni, ciddi iş və ibadət üçün vaxt olduğu kimi istirahət, dincəlmək və əyləncə üçün də vaxt var.
- Mümkün olduğu qədər bu dəyişiklikləri həssas şəxsin ailəsi və həmyaşıd qrupu ilə müzakirə edin. Onlar bu məqamda həmin insanla kommunikasiyanı davam etdirmək və etdiyi seçimlərə qarşı çıxmaq üçün daha yaxşı mövqedə ola bilərlər.

VİDEOYA VEBDƏ BAX:
**TerRaToolkit.eu**



**PATRICK MAGEE**
SABİQ İRA DÖYÜŞÇÜSÜ
SÜLH NAMİNƏ KÖRPÜLƏR LAYİHƏSİNİN SPİKERİ,
BİRLƏŞMİŞ KRALLIQ

- Qrup üzvlüyünün dəyərini müzakirə edin.
- Həssas şəxslər haqqında narahatlıqlarınızı paylaşmaq üçün hüquq-mühafizə qulluqçuları, gənclər sahəsi işçiləri və sosial işçiləri məsələyə cəlb edin. Əgər, kimsə icmanız ilə olan əlaqəsini tamamilə itirirsə, bu heç də sizin məsuliyyətinizin bitdiyi kimi anlaşılmamalıdır. Siz hələ də onun tərk etməsi haqqında narahatlıqlarınızı paylaşa bilərsiniz.

## 8 ONLAR QATI RADİKALLARA ÇEVRİLƏRSƏ

İnteqrasiya olduğu zaman şəxs radikal qrupun fikir və fəaliyyətlərinin legitimliyinə daha çox inanmış olur. Bu zaman onlar ideoloji cəhətdən təsirə (beyin yuma) daha çox həssas olurlar, qrupun məqsədləri, eləcə də (zorakı) fəaliyyətlərinə hazırlıq haqqında daha çox düşünürlər. Bu mərhələdə onların fəaliyyətləri sizin nəzərinizdən kənarda baş verə bilər.

**Sizin hələ də həmin insanla əlaqəniz varsa, aşağıdakıları görə bilərsiniz:**

- Şəhidlik və şiddəti tərənnüm etdiyini.
- Hüquq-mühafizə əməkdaşları və digər peşəkar qrupların diqqətindən yayınmaq üçün həmyaşıdları ilə qaynayıb qarışmaq cəhdi ilə daha ifrat “görünüşü” tərk etdiyini.
- Qrupa yeni üzvlər cəlb edərək onlara təlim keçdiyini.
- Onların görüşlərini paylaşmayan insanlar haqqında nifrət ifadə etməkdə daha ifrata vardığını.
- Qrupu tərk etməyə çalışan digər qrup üzvlərini təhdid etdiyini.
- Özünün niyyətləri haqqında yazılı və ya video material hazırladığını.
- Təlim keçmək üçün səyahətə getməyə hazırlaşdığını və ya həqiqətən getdiyini.
- Müharibəyə qoşulmaq üçün xarici ölkəyə səfər etdiyini (və ya planlaşdırdığını).

### EDİN

- Hüquq-mühafizə əməkdaşlarının sizin narahatlıqlarınızdan xəbərdar olduqlarından əmin olun. Bu mərhələdə həqiqətən təhlükəli və zorakı fəaliyyətlər başlaya bilər, bu səbəbdən polisə xəbər vermək çox vacibdir.

### ETMƏYİN

- Güman edin ki, qrupla əlaqəli “görünüşün” tərk edilməsi mütləq ki, şəxsin qrup və ona inteqrasiyadan uzaqlaşmağı deməkdir. Faktiki olaraq, bu, doğru ola bilər, lakin, unutmayın ki, tamamilə bunun əksi də baş verə bilər.

# 9 TƏRƏFDAŞLARI DƏSTƏKLƏMƏK

Valideynlər ilkin xəbərdarlıq əlamətlərini görən ilk insanlardır, lakin onlar üçün düzgün çıxış yolu tapmaq çətin ola bilər.

**Onlar sizə aşağıdakılarla bağlı müraciət edə bilərlər:**

- övladlarının söylədikləri radikal düşüncələrin qarşısını almaq üçün biliklərinin olmadığı düşüncəsilə.
- əlamətləri polisə və ya hüquq-mühafizə orqanlarına xəbər verməyin potensial nəticələrindən qorxduqları üçün kimə gedəcəklərini bilmədiklərinə görə.
- övladları ilə əlaqələrini itirdikləri və ola bilsin ki, onun nələr edə biləcəklərindən qorxduqlarına görə.

**Bu zaman onlar nə edərlərsə, onları ciddi qəbul edin:**

- Onları çox tez inandırmağa çalışmayın.
- Narahatlıqlarını ifadə edə biləcəkləri rahat və təhlükəsiz yer təmin edin.
- Onlara ideologiyanı müzakirə etmək üçün tutarlı sübut və düzgün ifadə tapmağa kömək edin.
- Bu ailəyə müvafiq dəstək tapmaq məqsədilə sahib olduğunuz əlaqələrinizdən istifadə etməyə icazə verib vermədiklərini onlarla müzakirə edin.

Radikallaşma prosesinin ilkin mərhələsində bəzən dəstək sizin əlaqələrinizin içində tapıla bilər. Məsələn, yeniyetməlikdə normal proseslər haqqında təlim və məlumatla bağlı valideynlərə məsləhətlə yardım edə biləcək sosial işçilər və başqaları ola bilər. Bəzi ölkələrdə radikallaşmanın qarşısını almaq məqsədilə mövcud mütəxəssislər kömək üçün, məsələn, valideynləri hazırlaşdırmaq və ya radikal qrupu tərk etməyə hazırlaşan gənclərə məsləhət vermək üçün çağırıla bilərlər. Bəzi ölkələrdə bununla yanaşı radikallaşmanın qarşısını almaq üçün ailə proqramları təklif edilir. Ölkənizdəki imkanlar haqqında məlumatlı olun.

Radikallaşma ilə üzləşən ailələr üçün dəstəklə bağlı bir çox tədqiqat layihələri hələ də davam edir. Bu məqsədlə, hazırda mövcud olan layihələr barədə xəbərdar olun.

*Mən oğlumu məscidin içinə daxil olana qədər izlədim, lakin o, mənimlə danışmaq istəmirdi. Buna görə də mən orda imamla görüşdüm və o, mənim oğlumla yenidən əlaqə qurmağıma kömək etdi.*

(Anonim, radikal şəxsin anası)

Bu təlimat peşəkar əlaqədə olduğunuz qrup daxilində radikallaşmanın tanınması və qarşısının alınmasında sizə kömək etmək məqsədilə hazırlanmışdır. Əgər bu layihə haqqında daha çox məlumat və ya daha çox resurs əldə etmək istəyirsinizsə, zəhmət olmasa, bizim **www.terra-net.eu** veb səhifəmizi ziyarət edin.

VƏSAİT BU LİNKDƏN ƏLDƏ EDİLƏ BİLƏR
TerRaToolkit.eu

# TƏLİMATLAR JURNALİSTLƏR

*Xəbər hazırlama və radikallaşmanın sizin sahə ilə əlaqəsi*

## JURNALİSTLƏR ÜÇÜN TƏLİMATLAR

*Bu təlimatlar jurnalistlər üçün yazılmışdır və xəbərçatdırma ilə radikallaşma və terrorizm arasında əlaqə haqqında bəzi müzakirələri ehtiva edir. Təlimatlarda belə həssas məsələləri əhatə etdikləri zaman jurnalistlər tərəfindən diqqətə alına biləcək çalışma metodları və amillər barədə bəzi məsləhətlərə də yer verilir.*

MÜNDƏRİCAT


| | | |
|---|---|---|
| 1 | GİRİŞ: ƏSAS MƏSƏLƏLƏR VƏ MƏQSƏDLƏR | 38 |
| 2 | AZLIQLAR BARƏDƏ XƏBƏR HAZIRLAMAQ RADİKALLAŞMAYA NECƏ TƏSİR EDƏ BİLƏR? | 39 |
| 3 | TERRORİZM BARƏDƏ XƏBƏR HAZIRLAMAQ RADİKALLAŞMAYA NECƏ TƏSİR EDƏ BİLƏR? | 40 |
| 4 | MEDİA VƏ RADİKALLAŞMA: DİLEMMALAR VƏ PERSPEKTİVLƏR | 42 |
| 5 | BİR ADDIM İRƏLİ | 45 |
| 6 | MƏLUMAT VƏ RESURSLAR | 45 |

# 1 GİRİŞ: ƏSAS MƏSƏLƏLƏR VƏ MƏQSƏDLƏR

Media və terrorizm arasında demək olar ki, simbiotik əlaqələrin mövcudluğu barəsində çox şey yazılıb. Marqaret Tetçerin məhşur “təbliğat terrorizmin oksigenidir” bənzətməsi terrorçuların ictimaiyyətə və publikaya olan ehtiyaclarına istinad edir. Gündəm yaratmaq və onun çərçivələrini təyin etmək bacarıqları ilə media ictimaiyyəti formalaşdırmaq və hərəkətə keçirmək üçün vacibdir. Mənfəətlər qarşılıqlıdır; belə ki, terrorizm medianı insanları maraqlandıran xəbərlər kimi qablaşdırılmağa uyğun və satılan məhsul üçün əla komponent olan dram, sarsıntı və faciə ilə təmin edir. Terrorizm haqqında xəbər hazırlamağın ictimaiyyət üzərində adətən qorxu və ya terrorizm əleyhinə addımlara dəstək kimi təsiri ola bilər. Terroristlərin həyata keçirməyə çalışdıqları digər bir şey də motivlərinin qəbul edilməsi və onların ideallarına simpatiyanın formalaşdırılmasıdır. Bu, əlimizdəki sənədin perspektivinə – **"ənənəvi xəbər mediasının radikallaşma üzərində təsiri"**nə işarə edir.[1]

Burada sadəcə terrorizm haqqında xəbərçatdırma deyil, eyni zamanda azlıqlara toxunmaq və onları təsvir etmək də ciddi bir məsələdir. Xüsusilə dini və etnik motivli stereotip və qərəzlər media işıqlandırması zamanı asanlıqla (və bəzən istəmədən) müdafiə edilə və ya möhkəmləndirilə bilər. Mövcud (lakin ideal olmayan) sosial əlaqələrin və ya hazırkı vəziyyətin (status quo) təsdiqlənməsi narahatlıq (qrup) əlavə etməyə, milliyətçiliyi möhkəmləndirməyə və ya hətta alovlandırmağa və yaxud əks halda qrup daxili gərginliyə səbəb ola bilər.

Digər tərəfdən ritorikanın "biz-və-onlar" düşüncəsinin təcrübəsi və ya qəbul edilən məhrumiyyət üzərində təsirini tamamilə bildikləri zaman jurnalistlər ayrı-seçkiliyi asanlaşdırmaq və ya onun sözlə ifadə olunmasından yayınmaq gücünə sahib olurlar.

**Bu sənədin məqsədi:**

- cəmiyyətin bəzi aspektləri haqqında xəbər çatdırmanın Avropa radikallaşma prosesinə necə təsir edə biləcəyi barədə məlumatlılığı artırmaq;
- medianın oynadığı rol və onların nə dərəcədə cavabdehlik götürə biləcəkləri və ya götürməli olduqları haqqında müzakirələrə təkan vermək;
- bu mövzu ilə şüurlu şəkildə işləmək üçün siyasətçilər, redaktorlar və jurnalistlərə alternativləri göstərməkdir.

## RADİKALLAŞMA

‘Radikallaşma’ termininin siyasi arenada siyasi seçimləri təşviq etmək üçün istifadə edildiyinə görə bir çox tərifi vardır. Həmçinin akademik təriflərin tez-tez xüsusi elm sahələri tərəfindən rənglədiyi görünməkdədir və onların əksəriyyəti dürüstlüyün olmamasından əziyyət çəkir. Təriflərin əksəriyyətinin ortaq tərəfləri şəxsi proseslərə

1 Onlayn radikallaşma barədə geniş ədəbiyyat mövcuddur, lakin o, bu mətnin mövzusu deyil.

istinad etmələri və adətən qrup prosesləri tərəfindən güclü şəkildə təsirə məruz qalmalarıdır. Bu proses zamanı aparıcı siyasi düzən və həmçinin dəyişiklik gətirmək vasitəsi kimi kompromis və tolerantlıq rədd edilir. Bunun yerinə, zorakılıq müvafiq məqsədlərə çatmaq üçün uyğun metod kimi gedərək daha çox qəbul edilir.

## 2 AZLIQLAR BARƏDƏ XƏBƏR HAZIRLAMAQ RADİKALLAŞMAYA NECƏ TƏSİR EDƏ BİLƏR?

Tədqiqat göstərir ki, insanların radikallaşmağa doğru yönəlmələri üçün çoxlu amillər mövcuddur. Bu, şəxsi məsələ ola bilər – əsasən identiklik və dəyər axtarışı və ya əsaslı dəyişikliklərə təkan verən şəxsi travma, lakin reallıqda sosial kontekstin bu prosesin necə davam edəcəyi və onu təmin edən hekayələr üzərində hökmünün vacib rol oynadığı danılmazdır. Burada vacib olan insanların vəziyyətlərini necə dərk etmələridir. Ayrı-seçkiliyin subyektiv dərk edilməsi şəxsi səviyyədə və ya qrup səviyyəsində məhrumiyyət hissinə güclü şəkildə səbəb ola bilər. Bu dərk etmələr dərin qərəzlər və "biz-və-onlar" düşüncəsi tərəfindən gücləndirilmiş ola bilər ki, bu da nəticədə öz-özünü həyata keçirən kahinliyə səbəb olur.

Qrup üzvlərinin başqa qrupla müqayisədə daha az haqq və imkanlarının olduqlarını gördükləri qrup narazılıqları şəxsi təcrübələrdən daha çox səfərbər edicidir. Qrup və şəxslərin bəzən narazılıqları ‘qəbul etdikləri’ və məsələn, insanların digər ölkələrdə gedən münaqişələrə qoşulmaq üçün ölkələrini tərk etmələri kimi özlərindən daha çox başqalarının səbəblərinə ‘’himayədarlıqları’’ xüsusilə diqqətəlayiqdir.

İnsanlar dialoq, hüquqi proses, demokratiya və tolerantlıq kimi sosial nizamlamanın normal olaraq qəbul edilən vasitələri ilə öz narazılıqlarını bildirmək üçün yollar tapa bilmədikləri zaman radikallaşma prosesinə doğru addım atan alternativ yollar axtarmağa başlayırlar. Bu sadəcə özlərinə qarşı ayrı-seçkilik hiss edən azlıqlar üçün deyil həmçinin immiqrantlar və ya azlıq qruplar tərəfindən təhdid hiss edən əksəriyyət üçün də keçərli ola bilər.

### AZLIQLAR BARƏDƏ XƏBƏR HAZIRLAMAQ

### RADİKALLAŞMAYA MƏNFİ TƏSİR EDƏ BİLƏR

- **Təsvir etməklə**
  - Stereotiplər tez-tez və asanlıqla, məsələn mənfi fəaliyyətlər və ya təxribatçı bəyanatlarla və ya kiminsə mədəni və dini keçmişi, hətta bu keçmiş tamamilə uyğun olmadıqda belə, qarşınıza çıxa bilər.
  - Daha geniş kontekstə toxunmadan epizodik təsvirlərdə istifadə etməklə.
- **Gündəmi formalaşdırmaqla**
  - Qrup ciddi ədalətsizliyə uğradığı və daha sonra media buna laqeyd qaldığı zaman bu daha ağrılı hala çevrilir.

*Biz istəmədən necə xəbər hazırlamağımızla bağlı siyasi təsir altında qala bilərik; jurnalist kimi bizim ilk işimiz orada olanlara dəqiq və diqqətli olmaqdır.*

- Eyni zamanda bütün icmanı təmsil edirmiş kimi kiçik bir qrupun narazılıqlarını güclü şəkildə ehtiva etmək səhv tarazlaşdırma ilə nəticələnə bilər ki, bu da vəziyyəti lazım olduğundan daha çox təzyiq altına qoya bilər.

- **Ritorika ilə**
  - "Biz-və-onlar" və ya "yaxşı və pis" düşüncəsinə diqqət çəkən stilistika cəmiyyətdəki qütbləşməni gücləndirə bilər.
  - İlk dəfə irəli sürüldüyü zaman vəziyyətin mürəkkəbliyini təsdiq etməyən və əksinə zərər vuran (yenicə istifadə olunan) termin özlüyündə stereotip ola bilər.

### AZLIQLAR BARƏDƏ XƏBƏR HAZIRLAMAQ RADİKALLAŞMAYA MÜSBƏT TƏSİR EDƏ BİLƏR

- **Təsvir etməklə**
  - Xüsusi risk faktorlarının geniş əhatəsinə istinad edərək.
  - Böyük mənzərəni göstərərək, məsələn statistikaları, ekspert analizi və ya digər müvafiq keçmiş məlumatları təmin etməklə.
- **Gündəmi formalaşdırmaqla**
  - Müxtəliflik haqqında məlumatlılığı artırmaq və ayrı-seçkilik haqqında ictimai debata təkan verməklə.
  - Azlıq və çoxluq qrupları arasında əməkdaşlığın müsbət nümunələrinə və azlıqların cəmiyyətə verdikləri töhfələrə diqqət yetirməklə.
- **Ritorika ilə**
  - İncə nüanslı üslub və müsbət səs tonu istifadə etməklə.

## 3 TERRORİZM BARƏDƏ XƏBƏR HAZIRLAMAQ RADİKALLAŞMAYA NECƏ TƏSİR EDƏ BİLƏR?

Narazılıqlardan başqa həyəcan və təsir altına düşmək də insanları radikal davranış istiqamətinə yönləndirə bilər. Terrorist fəaliyyətlərin və təhdidlərin işıqlandırılması, terrorist fəaliyyətləri həyəcanlı və macəralı təsvir etmək radikallaşma riski altında olan gənclərin həyəcan axtarma tendensiyasını "bəsləyə bilər". Boston bomba partlayışında şübhəli bilinən Dzhokhar Tsarnaevi Jim Morrisonu xatırladan seksual ulduz kimi göstərən "Rolling Stone" jurnalının heyranedici üz qabığı şəklini düşünün.[2]

Bəzi digər cəlbedici faktorlara həm də ədalətsizlik qarşısında çıxış etmək üçün emosional istək, status və düzgünlüyün şəxsi şərəf kodeksi daxildir. Terrorçular bu faktorları ələ almaq və istedadlı gənc insanları öz məqsədləri naminə qazanmaq üçün medianı istifadə eləməyə çalışacaq. Onların amalı bu insanların onların məqsədləri haqqında düşünmələrinə nail olmaq və onların əsaslandırmaları üçün rəğbət və onları

[2] 'Rolling Stone defends Tsaernev glam cover amid outcry http://www.usatoday.com/story/news/na- tion/2013/07/17/ dzhokhar-tsarnaev-boston-marathon-bombing-rolling-stone/2523891/




**GAVIN REES**
JURNALİST, AVROPA DART MƏRKƏZİNİN DİREKTORU,
BİRLƏŞMİŞ KRALLIQ

ictimaiyyətin nəzərində əsas siyasi aktyorlarla bərabər edən legitimlik qazanmaqdır.[3] Bu, onların motivasiyalarının həmişə reportyorlara güclə qəbul etdirmələri mənasına gəlmir. Vaxtaşırı motivasiya hekayələrə uyğun olur və ya sadəcə hadisələr xəbər verildiyi zaman yeni məlumat olaraq tək olur və buna görə də könüllü olaraq ələ alınmış olur.

Digər faktor isə, status və hörmət qazanmaq arzusudur və potensial dəstəkləyicilərin nə edə biləcəyini göstərməklə terroristlər tərəfindən istismar edilir. Hücumun əzəmətli təsviri heyranlığı ruhlandıra bilər. Bundan başqa onlar şəxsi müsahibələr, peşəkarlıqla qeydə alınmış videolar və diqqətlicə təsvir edilmiş mesajlarla öz liderlərinin ‘normal’ siyasi liderlərlə müqayisə edilə biləcək profilini yaratmağa çalışırlar.

Burada qeyd edilməli sonuncu faktor bəzi hallarda radikallaşmaya sövq edən travma və qisas arzusudur. Bu halda qurbanların və onların icmalarına terror hücumu haqqında xəbərin təsiri perspektivi ortaya qoyulur. Hücum haqqında xəbər və qurbanlarla müsahibə keçirmək icmaların drama verdikləri reaksiya üsullarına təsir edə bilər. Xüsusilə münaqişələrin kök saldığı və bütün icmaya təsir etdiyi yerlərdə separatçı hücum halları buna çox uyğun ola bilər.

## TERRORİZM BARƏDƏ XƏBƏR HAZIRLAMAQ RADİKALLAŞMAYA MƏNFİ TƏSİR EDƏ BİLƏR

- **Təsvir etməklə**
  - Terror fəaliyyətlərini müharibə və ya fəlakət kimi təsvir etmək qütbləşməni gücləndirir və sadəcə iki düşərgəyə ayıracaq "biz-və-onlar" bölgüsünü sürətləndirir. Bu, ikili identikliyi olan insanlar üçün çox ziddiyyətli ola və onları daha ifrat istiqamətə doğru yönləndirə bilər.
  - Cazibədar olaraq təsvir etmək. Bu “cazibə” “zor olmaq” axtarışında olan gənclər üçün ciddi şəkildə daha cəlbedici olacaqdır.
  - Fəaliyyət riskləri üzərinə tam diqqət yetirmək tamamilə münaqişənin intensivliyinin tarazlaşdırılmamış mənzərəsini təqdim edir.
- **Gündəmi formalaşdırmaqla**
  - Hücumun arxasında duran terrorist qruplara və onların motivasiya və liderlərinə həddindən artıq diqqət yetirmək simpatiya göstərənlərin yaranmasına səbəb ola bilər.
  - Qurbanların perspektivini əhatə etməmək həmçinin həddindən artıq vurğulamaq radikallaşma üçün toxum olacaq narazılıqlara yol aça bilər.

2 Brigitte Nacos developed an extensive framework on this in her book Mass-Mediated Terrorism: The Central Role of the Media in Terrorism and Counterterrorism, (2007) Lanham, Md.: Rowman & Littlefield Publishers, Inc. Brigitte Nacos kitabı Mass-Mediated Terrorism: The Central Role of the Media in Terrorism and Counterterrorism bu haqda geniş təsvir inkişaf etdirmişdir, (2007) Lanham, Md.: Rowman & Littlefield Publishers, Inc.

- **Ritorika ilə**
  - (İntihar) hücumu haqqında xəbərin çoxlu detalları olduğu zaman bu, az qalsın təlimat kimi oxuna bilər.
  - Planlaşdırılmış və ya hazırkı terror aktına qarşı fəaliyyətlər üçün (detallı) istinadlar radikal qrupları təşviq edə və terrorizm əleyhinə yanaşmalara ziyan vura bilər.

TERRORİZM BARƏDƏ XƏBƏR HAZIRLAMAQ
RADİKALLAŞMAYA MÜSBƏT TƏSİR EDƏ BİLƏR

- **Təsvir etməklə**
  - Səbəbləri nə olursa olsun, terror aktlarını cinayət fəaliyyəti kimi təqdim etmək və bərabər səviyyəyə qoymaq yerinə bu hücumu hüquq və ədalətə təslim etmək. Bu, terrorçuların qəbul edilmiş gücünü azalda bilər.
- **Gündəmi formalaşdırmaqla**
  - Hücumdan başqa məsələlərə diqqət yetirmək tarazlıq və perspektiv gətirir. Son dəqiqə xəbəri olmadığı təqdirdə statusu ‘son dəqiqə xəbəri’ eləmək onun təsirini artıra bilər.
- **Ritorika ilə**
  - Terrorizm, ekstremizm və radikallaşma terminlərini istifadə edərkən ehtiyatlı olun. Bu terminlərin bir çox tərifləri vardır. Buna görə də terrorizm və radikallaşma baxımından müəyyən hadisələri təsvir etdiyiniz zaman hansı əlavə məna çalarının ortaya çıxa biləcəyini başa düşmək və ya hətta aydınlaşdırmaq çox vacibdir.

# 4 MEDİA VƏ RADİKALLAŞMA: DİLEMMALAR VƏ PERSPEKTİVLƏR

Etnik və dini məsələlərin media işıqlandırması artıq keçən onillik ərzində müxtəliflik siyasətlərinin və redaksiya təlimatlarının tətbiqi nəticəsində ən azından ana mediada, səviyyəli mətbuatda diqqət mərkəzində olmuşdur. Bir çox Avropa ölkələrində jurnalistlər arasında aparılmış tədqiqat göstərir ki, etnik mənsubiyyət və din haqqında xəbər hazırladıqları zaman jurnalistlər özlərinin obyektivlik, media pluralizmi, demokratiya və vətəndaş cəmiyyəti dəyərlərinə ithaf etdiklərini bəyan edirlər. Eyni zamanda onlar medianın etnik mənsubiyyət və dinlə əlaqəli mənfi stereotiplərin və qərəzlərin irəli çəkilməsində hələ də müəyyən rol oynadığını qəbul edirlər. Müsahibə keçirilmiş jurnalistlərə görə müxtəlif məsələlərlə bağlı xəbər hazırlandığı zaman iki əsas cəhd arasında balansı əldə etməyə ehtiyac var: məlumatlandırmaq və şərh etmək. Məlumatlandırma hadisənin baş verdiyi kimi düzgün təqdimetməyə istinad edərkən, şərh etmə “ictimai narahatlıq doğuran məsələlər haqqında konstruktiv ictimai dialoq”u təşviq etməyi özünə məqsəd etməlidir.[4]

4 Rupar (2012) Faktları düzgün əldə etmək. Etnik mənsubiyyəti və dini hesabat hazırlamaq. Belçika, Beynəlxalq Jurnalistlər Federasiyası, s. 58.

Hesabat həmçinin mövzuyla əlaqəli digər sənədlərdə keçən və 19-cu əsrin sonlarından bəri inkişaf etdirilimiş jurnalistliyinin peşəkar kod və təlimatlarında da əksini tapan bir çox tövsiyələri əhatə edir. Faktiki olaraq, bu, ümumi mənada həssas xəbər çatdırma, keçmişə dair məlumatlar və fakt yoxlama haqqındadır (çərçivəyə bax). Eyni prinsiplər terrorizm haqqında xəbər hazırlamağa da aid edilir. Həmçinin, xəbər təqdimetmə zamanı balanslı, mənbələr haqqında tənqidi və cinayətkar və qurbanların təqdimatında diqqətli olmaq vacibdir.

BUNLARIN HAMISI HƏSSAS XƏBƏRVERMƏ HAQQINDADIR

**Müxtəliflik haqqında hesabat sənədlərində verilmiş tövsiyələrin növləri əsasən sadədir. Bəzi nümunələr:**

**Hadisənin daha da dərininə gedin:**

**Keçmişlə bağlı məlumatlar verin və hüquqi konteksti izah edin.**

Bir çox xəbər hekayələri xüsusi risk faktorlarının ümumi quruluşuna istinad etmədən hadisənin təxribat törədici və ya qabarıq tərəflərini göstərirlər. ‘Epizodik təsvirlərin’ əvəzinə ‘tematik təsvirlərin’ istifadəsindən faydalanan həssas mövzular haqqında xəbər daha böyük mənzərəni göstərir. Bu, məsələn, statistika, ekspert analizi və ya keçmişlə bağlı müvafiq məlumat verməklə edilə bilər.

**Sizin hekayəniz sadəcə sizin mənbəniz qədər yaxşıdır.**

Əgər siz tez-tez icma haqqında xəbər verirsinizsə onu yaxşı bildiyinizdən əmin olun və orada olan mənbələr üzərində işləyin. Bütün mənzərəni təsvir etdiyinizdən əmin olun.

**Hekayənin bir tərəfini əldə etməklə kifayətlənməyin.**

Oxuculara hekayənin təhrif edilmiş versiyasının verilməsinin qarşısını almaq üçün tərs baxışlı mənbələri də müsahibə etdiyinizdən əmin olun.

**Kənarda dayanmayın.**

Hesabatda tarazlıq sadəcə ifrat sola və ya ifrat sağa getmək deyil.

**Səssizlərin səsi olun.**

Qrup ciddi ədalətsizliyə məruz qaldığı və buna laqeyd yanaşıldığı zaman.

**Bir tərəfdən məcəllələr və təlimatlar, digər tərəfdən gündəlik təcrübələr arasında əksər hallarda müxtəliflik olur. Bu mərhələdə, bir çox açıqlama reallığın sərtliyini üzə çıxarır:**

- Faktları yoxlama, çoxsaylı mənbələrdən istifadə və dəqiq olma haqqında təlimatlar üzərində fokuslanmağın günümüzdəki xəbər yaratma vasitələri ilə ziddiyyət təşkil etdiyi görünür: hekayə ilə ilk olmaq (tutarlılıq və ya müəyyən aspektləri nəşr edib etməmək, yaxud da efirə verib verməmək barədə yaxşı məlumatlandırılmış qərarlar vermək üçün çox zaman ayırmamaq); izləyiciləri və oxuyucuları cəlb etmək və beləliklə reklam gəlirini artırmaq.
- Jurnalistlərin əksəriyyətinin ağır iş yükü ilə jurnalistlər üçün təhsil sonrası

*Siyasi şiddət haqqında çətin material üzərində çalışdığımız zaman qısa zamanda qara və ağ olmaq çox asandır.*

---

təlimlə, məsələn azlıqlar haqqında xəbər hazırlamada daha böyük tutarlılıq üçün tövsiyələr arasında ahəngsizlik görünür.

- Terror hücumları xəbər istehlakçılarını cəlb etmək üçün çoxlu imkanlar təklif edir: burada dram, təhlükə, sarsıntı, qan, insan fəlakəti, möcüzəli hekayələr və qəhrəmanlar var. Terrorizm insanların uzun zaman xəbər mediasına diqqət etməsinə səbəb olur, buna görə də demək olar ki, bunun məntiqi seçimə və ya hətta onu əhatə etmək üçün məqsədə çevrildiyi görünür. Bundan başqa, xəbərin işıqlandırılmasının “həddindən artıq” olduğuna kim qərar verir?
- Nüans adətən mənəvi bərabərlik içində itir; bu, o mənaya gəlir ki, media mənsubları siyasətdə terrorizm və ya qanlı fəaliyyətlər kimi adlandırılan aktları qınamaqdan imtina etdikləri zaman, onlar günahkarlara platforma təklif etmək və ya terrorizm əleyhinə siyasətləri tənqid etmək ittihamı ilə üzləşəcəklər.
- Bunun kommersiya öhdəliyi üçün birbaşa nəticələri ola bilər: etibar riski itirilmiş reklam və ya dövr edən gəlirlər baxımından birbaşa maliyyə riskləri ilə bağlıdır. 2003-cü ildə Birləşmiş Krallıqda "Daily Mirror" qəzeti müharibə əleyhinə güclü mövqe tutduğu zaman onlar nəticədə dövriyyədəki ciddi itkilərdən əziyyət çəkdilər.
- Detalları gizlətmək və ya aşkarlamaq seçim məsələsi olduğu zaman risk ictimaiyyətin məlumatlandırılma hüququ ilə tarazlaşdırılır. Orada hətta maraqlı tərəflər tərəfindən jurnalistlərə yanlış məlumat verməklə yoldan döndərmək üçün sistematik cəhdlər də ola bilər.

Zaman və pul məhdudiyyətləri, rəqabət təzyiqi və müasir media mühitində ənənəvi medianın yerinin dəyişməsi diqqətə alındığı zaman həmişə kodekslərə sadiq qalmaq həqiqətən çətin görünür. Mənfi təsirlərin qarşısını almaq çətin olduğu təqdirdə xəbər mediasının gücünü xeyirxah məqsədlər üçün istifadə etmək imkanı və ya hətta belə bir öhdəliyi varmı? "Müxtəliflik naminə Media" hesabatı[5] daha da irəli gedərək vurğulayır ki, medianın müxtəliflik haqqında məlumatlılığı artırmaq, ayrı-seçkiliyə qarşı durmaq, etnik və dini azlıqlar üçün müsbət identikliyi irəli çəkmək kimi cavabdehliyi vardır. Hesabat bunun Avropada necə təcrübə edildiyi ilə bağlı bir çox nümunələri təsvir edir. Lakin bu, bütün növ media qurumlarının az-çox etməli olduqları aşkar olan bir şey deyil. Media mühitindəki müxtəlifliyin xüsusiyyətlərinə, adət-ənənəsinə, hədəf kütləsinə, ideoloji və siyasi keçmişinə baxdığınız zaman, bu, daha çox bəzi kanalların və ya qəzetlərin özlərini fərqləndirmək üçün istifadə edə biləcəkləri yanaşmaları xatırladır. Əgər kanalların siyasətini onun adət-ənənəsi və rəngi müəyyənləşdirirsə, bu, ümumi təlimatların və tövsiyələrin ümumiyyətlə faydalı olub-olmadıqları sualını gündəmə gətirir. Müzakirə, bəlkə də, keyfiyyət standartlarının mahiyyəti ilə deyil, onların faktiki status və gücü haqqında olmalıdır. Xəbər mediasının ictimaiyyət qarşısında öhdəliyi nə olmalıdır və bu, qərarlara necə təsir edə bilər? Bu, ümumilikdə radikallaşmaya xüsusi diqqət verildiyindən əmin olmaqla müzakirə mövzusu olmalıdır.

5 "Müxtəliflik Naminə Media". Mediada Müxtəlifliyin Nəbzini Tutmaq. Aİ üzv ölkələrində və 3 Avropa İqtisadi zonası ölkəsində Media və Müxtəliflik Tədqiqatı

VƏSAİT BU LİNKDƏN ƏLDƏ EDİLƏ BİLƏR
**TerRaToolkit.eu**



**GAVIN REES**
JURNALİST, AVROPA DART MƏRKƏZİNİN DİREKTORU, BİRLƏŞMİŞ KRALLIQ

## 5 BİR ADDIM İRƏLİ

Xəbərvermə və radikallaşma arasında əlaqələrə diqqət yetirməyin vacibliyi və mürəkkəbliyini nəzərə alsaq, motivasiya və biliyə sərmayə qoymağa ehtiyac var. Kodekslər və təlimatlara əməl etmək üçün ilkin olaraq bu şərtlərin qarşılanmalı olduğu görsənir.

### MƏLUMATLILIQ VƏ MOTİVASİYA

Radikallaşma media üçün sadəcə nəşr baxımından deyil, həmçinin əlaqədar siyasəti formalaşdırmaq üçün də çox müvafiq mövzudur. Xəbərvermə və radikallaşma arasında əlaqənin həssaslığı və buna uyğun olaraq hərəkət etmək üçün motivasiya, media təhsili və media siyasətinin gündəliyində daha yüksək yerdə qərarlaşmalıdır. Daha əvvəl istinad etdiyimiz müzakirə ən yaxşı təcrübələrin nümunələri ilə birlikdə stimullaşdırıla bilər.

### ƏLÇATAN MƏLUMAT

Terror mexanizmləri və radikallaşma prosesləri haqqında daha asan əldə edilə bilən məlumat nisbətən qısa zamanda daha böyük mənzərəni əldə etməyə və asan səhvlərin qarşısını almağa kömək edəcəkdir.

Siyasət səviyyəsində bu araşdırma nəticəsində ortaya çıxan məlumat tədqiqat aparmaq və oxumaq üçün həmişə az zaman olduğunu diqqətə alan asan əldə edilən praktiki dəlillər və təlimatlarda fasiləsiz yenilənməlidir. Həmçinin, mümkün məlumat bazalarının xülasəsi mövcud olmalıdır. Aşağıda verilmiş mənbə siyahısına əlavə məlumat üçün baxın. Bu siyahı redaktor və jurnalistlər üçün faktları yoxlamaq və terminləri istifadə etmək və ya əsaslı tədqiqat aparmaq üçün sürətli başlanğıc nöqtəsi kimi praktik səviyyədə yardımçı ola bilər.

## 6 MƏLUMAT VƏ RESURSLAR

### TERMİNOLOGİYA VƏ FAYDALI LÜĞƏTLƏR

"Terroizm" və "radikallaşma" terminlərinin – qismən siyasi seçimləri təşviq etmək üçün siyasi arenada istifadə edildiyinə görə – bir çox tərifi vardır. Buna görə də terrorizm və radikallaşma baxımından müəyyən hadisələri təsvir etdiyiniz zaman hansı əlavə məna çalarını ortaya çıxa biləcəyini başa düşmək və ya hətta aydınlaşdırmaq çox vacibdir.

Sizin ana dilinizdə tez-tez istifadə olunmayan sözlərin bəzən elə məna çalarları var ki, siz onlardan məlumatlı olmaya bilərsiniz. Həmçinin, dinləyicilərin az bildikləri və ya ümumiyyətlə bilmədikləri və ya asanlıqla yanlış izah edilə biləcək terminlərin

istifadəsindən çəkinin. Çəkinmək mümkün olmadığı hallarda onlara aydınlıq gətirin. Məsələn, “cihad” sözü əksər hallarda “müqəddəs müharibə” kimi yanlış tərcümə edilir və şər, təhlükəli, məşum və s. kimi terminlərlə əlaqələndirilir. Bəzi hərbi qruplaşmaların ifadəsini bu istiqamətdə istifadə etmələrinə baxmayaraq əsl müsəlmanlar üçün bu,  anlayışın tamamilə fərqli məna çaları var. Eyni şəkildə, “Allah ən böyükdür” kimi tərcümə edilə bilən ərəb söz birləşməsi “Allahu Akbar” həddindən artıq vacibdir və müsəlmanlar tərəfindən bir qayda olaraq istifadə edilir. Bu İslam ibadətinin (namazın) təkrarlanan bir əlaməti olsa da, həmçin ümumi sevinc kimi də istifadə edilir. Lakin, mediada bu ifadə bəzən döyüş nərəsi kimi izah edilir. Bu, potensial olaraq həmin ifadənin bütün istifadəsinə şübhəli və təhdidedici çalar verir.

Bu kontekstdə bəzi faydalı lüğətlər:

- **Din Lüğəti**

http://www.thearda.com/learningcenter/religiondictionary.asp (ABŞ) dini terminlər lüğəti, həmçinin xəritələr, qrafika və zəngin məlumat bazasını ehtiva edir

- **İmmiqrasiya Lüğəti**

http://ec.europa.eu/dgs/home-affairs/what-we-do/networks/european_migra- tion_network/glossary/index_a_en.htm

EMN Lüğəti bir çox dillərdə, həmçinin ərəb dilində, nəşr edilmişdir. Bu, həmin lüğətin EMN tərəfindən necə hazırlandığını izah edən girişi də ehtiva edir. Hazırda aşağıda verilmiş dil versiyaları mövcuddur: alman, ingilis, İspan, fransız, italyan, portuqal və ərəb.

- **Terrorizm Lüğəti**

  http://www.terrorism-research.com/glossary/

- **Rəmzlər və və qruplar indeksi:** http://nctc.gov/site/groups/index.html

## TERRORİZM HAQQINDA RESURSLAR

Terrorizm haqqında əksər ehtimallar sözdə ‘qara qu quşları’na (black swans) əsaslanır: normal gözləntilərin əhatəsindən kənara çıxan hadisələr yüksək təsirə və laqeyd proqnozlara sahibdir. 11 sentyabr hücumu qara qu quşuna misaldır; hər baxımdan həddindən artıq anormal bir hadisədir, lakin onun bir çox nəzəriyyələr, təriflər və terrorizmlə əlaqəli meyarlar üzərində vacib təsiri vardır. Terrorizmlə bağlı ‘miflər’ haqqında xəbərdar olaraq baş verən bu hadisə həmçinin terror hücumları haqqında daha tarazlaşdırılmış hesabatları dəstəkləyə bilər. Məsələn, LaFree hesabatında “Müzakirə nöqtəsi: qara qu quşları və anilik: terrorizm haqqında miflərlə mübarizədə qeyd olunmuş "miflərə" baxın.

(http://www.start.umd.edu/news/discussion-point-black-swans-and-bursti- ness-countering-myths-about-terrorism) və “START-ın Direktoru terrorizmin ümumi miflərini ələ alır”

(http://www.start.umd.edu/news/start-director-addresses-common-myths- terrorism).

---

Europoldakı analitiklər və ekspertlər tərəfindən Aİ üzv dövlətləri və kənar tərəfdaşlardan gələn yardımlardan yararlanaraq hazırlanan İllik Aİ Terrorizm Vəziyyəti və İstiqamət Hesabatı (TE-SAT)

https://www.europol.europa.eu > Stratejik analiz hesabatları > İllik Aİ Terrorizm Vəziyyəti və İstiqamət Hesabatı (TE-SAT)

**Terrorist insanların, qrupların və qurumların Rəsmi Avropa siyahısı** http://eur-lex.europa.eu/legal-content/EN/TXT/ PDF/?uri=CELEX:32013D0395&rid=1

http://www.terrorismdata.leiden.edu/

Terrorizm, Terrorizm Əleyhinə Mübarizə və Radikallaşma, Layden (Leiden) Universitetinin (Haaqa Kampusu) Terrorizm və Terrorizm Əleyhinə Mübarizə Mərkəzi (CTC) tərəfindən hazırlanmışdır, Niderland Krallığı.

http://www.start.umd.edu/

Terrorizm və Terrorizmlə Mübarizə Təlimlər Milli Konsorsiumu – daha yaxşı START kimi tanınır – universitet əsaslı tədqiqat və təhsil mərkəzi olaraq Birləşmiş Ştatlarda və dünyada terrorizmin səbəbləri və insani nəticələrinin elmi tətqiqatına istiqamətlənmiş beynəlxalq alimlər şəbəkəsindən ibarətdir.

Veb səhifə nəşrlər, hücumların keçmişi haqqında hesabatlar, Qlobal Terrorizm Məlumat Bazası kimi məlumatları axtarmaq üçün məlumat külliyatını ehtiva edir. (http://www.start.umd.edu/gtd/)

**Qlobal Terrorizm Məlumat Bazası (GTD)** 1970-ci ildən 2012-ci (gələcək üçün illik əlavə yenilənmə planlaşdırılmışdır) ilə qədər dünyada baş vermiş terror hadisələri haqqında məlumatların da daxil olduğu açıq mənbəli məlumat bazasıdır. http://www.transnationalterrorism.eu/

**Bu Avropada Millətlərarası Terrorizm, Təhlükəsizlik və Qanunun Aliliyi (TTSRL)** tədqiqat layihəsinin rəsmi veb səhifəsidir. Bu mərkəz Avropada terrorizmi daha yaxşı başa düşməyə kömək etməyi planlaşdıran çox tərəfli tədqiqat layihəsi idi. 2006-2009-cu illər arasında aparılan bu tədqiqat veb səhifədə mövcud olan bir çox faydalı nəşrlər buraxmışdır.

**Qurbanları müsahibə etmək və amansız hadisələr barədə hesabat haqqında məlumat və təlimat:**

http://dartcenter.org/gateway/journalists

Travmaya məruz qoyan hadisələr barədə hesabat, cavabdeh müsahibə texnikaları, açıq suallar istifadə etmək və şahidlərin/qurbanların yenidən travmaya məruz qalmasının qarşısını almaq haqqında çoxlu məlumat və təlimatlar.

Jurnalistlər və travma üçün DART mərkəzi həmçinin bu mövzu ilə bağlı çoxlu məlumat, dəlil qeydləri və rəhbərlər təklif edir, məsələn “Faciələr və Jurnalistlər - daha səmərəli işıqlandırma üçün rəhbər sənəd".

## RADİKALLAŞMA HAQQINDA RESURSLAR

www.radicalisationresearch.org

Siyasətçilər, jurnalistlər və öz işlərində radikallaşma, fundamentalizm və ya ekstremizm konseptlərini istifadə edənləri bu mübahisəli məsələlər barədə keyfiyyətli akademik tədqiqata asan girişlə təmin edir.

www.strategicdialogue.org

Strateji Dialoq üçün İnstitut dövrümüzün əsas təhlükəsizlik və sosial iqtisadi çətinlikləri ilə bağlı çoxmillətli mübarizə metodları inkişaf etdirmək və qlobal arenada səmərəli fəaliyyətlə bağlı Avropanın potensialını artırmaq üçün hökumətdəki liderlər, biznes, media və akademiya ilə işləyən müstəqil tədqiqat mərkəzidir.

www.counterextremism.org

Mövzu, ölkə, hədəf zona və resurs növü haqqında axtarış etməyə imkan verən zəngin məlumat bazasını ehtiva edir.

http://icsr.info

Beynəlxalq Radikallaşma üzrə Tədqiqat Mərkəzinin veb səhifəsi.

## XƏBƏR HAZIRLAMA VƏ MÜXTƏLİFLİK HAQQINDA RESURSLAR

http://www.media-diversity.org/en:

Kodların, təlimatların, hesabatların, ən yaxşı təcrübələrin və s. zəngin məlumat bazası.

http://ethicaljournalisminitiative.org/en

Zəngin məlumat bazası, bir çox resurslara keçid, nəşrlər və təcrübələr.

http://www.mediawise.org.uk/diversity

Etnik azlıqlar, gender, İslam, LGBT, əlilliyi olan insanlar, qaraçılar və səyahət edən şəxslər barədə ən yaxşı təcrübələr üçün məqalələr, hesabatlar və təlimatlar.

http://www.mediaact.eu

Avropada ədəbiyyat məlumat bazası və tədqiqat nəticələri ilə media cavabdehliyi və şəffaflığı haqqında Aİ tədqiqat layihəsinin veb səhifəsi.

http://ethicaljournalisminitiative.org/en

Rupor tərəfindən hazırlanan hesabatın "Faktları düzgün əldə etmək" tam mətni. Etnik mənsubiyyət və din haqqında xəbər hazırlamaq.

## BU SƏNƏDİN ƏSASLANDIĞI RESURSLAR:

Bakker, E. (2006) Jihadi terrorists in Europe - their characteristics and the circumstances in which they joined the jihad: an exploratory study. The Hague, Clingendael Netherlands Institute of International Relations. / Avropada cihadçı terrorist –onların

xüsusiyyətləri və cihada qoşulduqları şəraitlər: tədqiqat işi. Haaqa, Clingendael Niderland Beynəlxalq Əlaqələr İnstitutu.

Hoewe, J., Bowe, B. and Zeldes, G., 2010-08-04 "A Pedagogical Response to the Coverage of Islam: A Wiki-Based Best Practices Document for Reporting on Muslims and Islam" Paper presented at the annual meeting of the Association for Education in Journalism and Mass Communication, The Denver Sheraton, Denver, CO Online. / Hoewe, J., Bowe, B. və Zeldes, G. , 2010-08-04 "İslamın işıqlandırılmasına pedoqoji reaksiya: Müsəlmanlar və İslam haqqında Hesabat üçün Wiki-Əsaslı ən yaxşı təcrübi" Tədqiqat Jurnalistika və Kütləvi Kommunikasiyada Təhsil Birliyinin illik görüşündə təqdim edilmişdir, Denver Sheraton, Denver, CO Onlayn <PDF>. 2014-01-06 from http://citation.allacademic.com/ meta/p433264_index.html

De Wolf, A., Doosje, B. (2010) Aanpak van radicalisme. Een psychologische analyse. Amsterdam, SWP.

Perl, R.F. (1997) Terrorism, the Media, and the Government: Perspectives, Trends, and Options for Policymakers. CRS Report for Congress. / Perl, R.F. (1997) Terrorizm, Media, və Hökumət: Siyasətçilər üçün Perspektivlər, İstiqamətlər və Alternativlər. Konqres üçün CRS (Common Reporting Standart-Ümumi Hesabat Standartları) Hesabatı. http://fas.org/irp/crs/crs-terror.htm

Sageman, M. (2004) Understanding Terror Networks Philadelphia, University of Pennsylvania Press. / Filadelfiya Terror şəbəkələrini qavramaq, Pensilvaniya Universiteti Nəşriyyatı.

Sageman, M. (2008) A Strategy for Fighting International Islamic Terrorists The Annals of The American Academy of Political and Social Science 618.1. 223-31. / Beynəlxalq Müsəlman Terrorçulara qarşı Vuruşmaq üçün Strategiya. Amerika Siyasi və Sosial Elmlər Akademiyası İlliyi.

Schmid, A. (2013) Radicalisation, De-radicalisation, Counter Radicalisation: A Conceptual Discussion and Literature Review International Centre for Counter Terrorism, The Hague. / Radikallaşma, deradikallaşma, əks-radikallaşma: Konseptual Müzakirə və Ədəbiyyat Xülasəsi, Terrorizm Əleyhinə Beynəlxalq Mərkəz, Haaqa.

START research brief: Profiles of Individual Radicalization in the United States: Preliminary Findings./ START tədqiqat xülasəsi: Birləşmiş Ştatlarda Fərdi Radikallaşma profilləri: İlkin nəticələr.

https://www.start.umd.edu/pubs/STARTResearchBrief_ ProfilesofIndividualRadicalizationUS_Jan2014_0.pdf

McCauley, C. and Moskalenko, S. (2008) Mechanisms of Political Radicalisation; Pathways / Towards Terrorism. Terrorism and Political Violence, 20:415–433. / Siyasi Radikallaşma Mexanizmləri; Terrorizmə Doğru Yollar. Terrorizm və Siyasi Zorakılıq.

Moghaddam, F. (2005) The Staircase to Terrorism; A Psychological Exploration American Psychologist 60;2; 161-9. / Terrorizmə Gedən Pilləkən; Psixoloji Tədqiqat Amerikalı Psixoloq.

Moghaddam, F. və Solliday, E. (1991) Balanced Multiculutralism and the Chal- lenge of Peaceful Coexistence in Pluralistic Societies Psychology and Developing Societies, 3.1 51-72. / Tarazlaşdırılmış Multikulturalizm və Pluralist Cəmiyyətlərdə Dinc şəkildə bir arada yaşamanın problemləri. Psixologiya və İnkişaf Edən Cəmiyyətlər.

Nacos, B.L. (2007), Mass-Mediated Terrorism: The Central Role of the Media in Terrorism and Counterterrorism, (2nd edition), Lanham, Md.: Rowman & Littlefield Publishers, Inc, 2007. / Kütləvi-Vasitəçilik edilən Terrorizm: Medianın Terrorizmdə və Terrorizm Əleyhinə Mübarizədə Mərkəzi Rolu, (2-ci nəşr), Lanham, Md.: Rowman və Littlefield Nəşriyyat, Inc, 2007.

Rupar, Verica (2012). Getting the facts right. Reporting ethnicity and religion. Bel- gium, International Federation of Journalists./ Faktları Düzgün Əldə Etmək. Etnik Mənsubiyyət və din haqqında hesabat. Belçika, Jurnalistlərin Beynəlxalq Federasiyası.

Spencer, A. (2012) Lessons learnt. Terrorism and the Media. Arts and Humanities Research Council. / Öyrənilmiş dərslər. Terrorizm və Media. İncəsənət və Humanitar elmlər üzrə Tədqiqat Şurası.

http://www.ahrc.ac.uk/News-and-Events/Publications/Documents/Lessons- Learnt-Terrorism-and-the-Media.pdf

Tiegreen, Sara, and Newman, Elana (2008). Fact sheet ‘How news is “framed”. / Özət ‘Xəbərlər necə “təsvir edilir”’

http://dartcenter.org/content/how-news-is-framed

TTSRL (2008) Terrorism and the media. Deliverable 6, Workpackage 4. / Terrorizm və Media. Təslim edilə bilən 6, İş paketi 4.

http://www.transnationalterrorism.eu/tekst/publications/WP4%20Del%206.pdf

Vymetal, S., Vitousova, P., Cirtkova, L., Kloubek, M. (2008) Journalists and Victims of Crime Ministry of the Interior of the Czech Republic. / Jurnalistlər və Cinayətin Qurbanları. Çexiya Respublikasının Daxili İşlər Nazirliyi.

VƏSAİT BU LİNKDƏN ƏLDƏ EDİLƏ BİLƏR: TerRaToolkit.eu

# SİYASƏTLƏ BAĞLI TÖVSİYƏLƏR YERLİ HÖKUMƏT

**Radikallaşmaya icma yanaşması**

## YERLİ HÖKUMƏT ÜÇÜN SİYASƏTLƏ BAĞLI TÖVSİYƏLƏR

*Yerli hökumət işçiləri üçün hazırlanmış bu sənəd icma yanaşması vasitəsilə radikallaşma problemlərinə qarşı yerli səviyyədə mübarizə aparmağa dair təklifləri ehtiva edir. Sənəddə belə bir yanaşmadan necə istifadə edilməsinə dair təlimat, hansı peşəkarların prosesə cəlb olunması, eləcə də bu yanaşma ilə nələrin əldə olunacağına dair fikirlər öz əksini tapıb.*

---

MÜNDƏRİCAT


1 MƏQSƏDLƏR VƏ ARXA PLAN: RADİKALLAŞMA İLƏ İŞ 52
2 NİYƏ SİZ? 52
3 İCMA YANAŞMASININ FAYDALARI 53
4 İCMA YANAŞMASI ŞƏBƏKƏSİNƏ CƏLB EDİLMƏLİ PEŞƏKARLAR 54
5 İCMA YANAŞMASI SİSTEMİNİ FORMALAŞDIRMAQ 55

# 1 MƏQSƏDLƏR VƏ ARXA PLAN: RADİKALLAŞMA İLƏ İŞ

Radikallaşma probleminin yerli səviyyədə qarşısını almağın faydaları aydındır. Bu, təsiri ilkin olaraq yerli səviyyədə hiss edilən bir problemdir. Gənc insan radikallaşdığı təqdirdə bu proses ilkin olaraq böyük ehtimalla ailə üzvləri və daha sonra dostlar, müəllimlər, ola bilsin ki, dini liderlər və ya yerli idman klubunun məşqçiləri kimi daha geniş icma tərəfindən nəzərə çarpır. Buraya yerli səhiyyə sahəsinin peşəkarları və ya sosial işçilər, həmçinin yerli polis də cəlb edilə bilər. Radikallaşma prosesi nəzarətdən kənar şəkildə davam etdiyi təqdirdə şəxs hətta yerli təhlükəsizlik üçün də təhlükə hesab edilə bilər. Bundan əlavə, son hadisələr göstərir ki, radikallaşma coğrafi olaraq xüsusi səviyyələrdə baş verə bilər. Niderlanda eyni şəhər bələdiyyəsi ərazisindən gənc insanların ifrat İslama doğru radikallaşaraq ya döyüşçü ya da cihad gəlinləri (jihad brides) kimi xaricə səfər etdiklərinə dair bir çox nümunə mövcuddur.

Radikallaşmaya qarşı qabaqlayıcı yanaşmanın qəbulu sizin bələdiyyə ərazinizdə təhlükəsizliyi artıra və himayənizdə olan vətəndaşları dəstəkləmək və müdafiə etmək üçün kömək ola bilər.

**Bu sənədin məqsədi aşağıdakılardan ibarətdir:**

- Radikallaşma, onun kökləri və yerli səviyyədə təsirləri barədə məlumatlılığı artırmaq;
- Radikallaşmanın qarşısını almaq üçün ən yaxşı yanaşmanın icmaya əsaslanan yanaşma olduğunu təklif etmək;
- Belə icma yanaşmasının əsaslana biləcəyi əməli çərçivə təmin etmək.

# 2 NİYƏ SİZ?

Yerli səviyyədə radikallaşma ilə mübarizə apara biləcək icma yanaşmasını formalaşdırmaq üçün sizin dəstəyiniz vacibdir.

TERRA tamamilə müxtəlif sahələrdən olan peşəkarların bir araya gəlib müntəzəm şəkildə ərazilərindəki radikallaşma məsələlərini müzakirə edəcəkləri icma əsaslı yanaşmanın istifadəsini təklif edir. Onlar, misal üçün, xüsusi şəxs və ya sosial qrup haqqında narahatlıqlarını paylaşa, müştərək yanaşmanı necə qəbul edə biləcəklərini müzakirə edə və ya öz ailə üzvü ilə bağlı narahatlıq ifadə edən ailə ilə daha yaxşı necə ünsiyyət (kommunikasiya) qurmağı qərarlaşdıra bilərlər. Sizin təşəbbüs və dəstəyiniz olmadan bu peşəkar qrup arasında əlaqə qurmağa nail olmaq və onu qorumaq çətin olacaq.

Ailələr və həssas şəxslərlə əlaqə quran qabaqcıl peşəkarlar arasında kommunikasiyanı təşviq edən inteqrə edilmiş yanaşma bu şəxslər və onların ailələri üçün dəstək və müdafiə təmin edə, yerli və milli təhlükəsizliyə müsbət istiqamətdə töhfə verə bilərlər.

## 3 İCMA YANAŞMASININ FAYDALARI

İcma yanaşmasını qəbul etməyin əsas məqsədi həm radikallaşan həssas vəziyyətdəki insanın, həm də onun yaxın və geniş ətrafının təhlükəsizliyini müdafiə etməkdir. Ailələr və qabaqcıl şəxslər haqqında danışdığımız zaman bu ailə üzvlərinin, eləcə də peşəkarların müxtəlif tezliklərlə həssas vəziyyətdəki insanla əlaqədə olduğunu görə bilərik.




Bu dairə modelindəki hər bir çevrənin həssas vəziyyətdəki insanla müxtəlif növ əlaqələri mövcuddür. Davranışlarda, həmyaşıd qruplarda və ya ideologiyalardakı dəyişikliklər kənar çevrə ilə müqayisədə iç çevrədə olan ailə üzvləri və peşəkarlar üçün daha aydındır. Məsələn, gənc insanın valideynləri oğlunun xarici görünüşündə etdiyi kəskin dəyişikliyi və tədricən əvvəlki həmyaşıd qruplarını tərk edərək yeni dostlarla görüşməyini görə bilər. Lakin oğlanı ilk dəfə görən polis məmuru onun ötən bir il ərzində nə qədər dəyişdiyini görə bilməyəcəkdir – halbuki, bu proses çox vacibdir. Buna görə də nə baş verə biləcəyini həqiqətən qavramaq üçün müvafiq çevrələr arasında əlaqə, kommunikasiya və şəffaflığı aydınlaşdırmaq çox əhəmiyyətlidir.

*Qorxu radikallaşmada vacib elementdir və o, hər iki tərəfdə hiss olunur*

# 4 İCMA YANAŞMASI ŞƏBƏKƏSİNƏ CƏLB EDİLMƏLİ PEŞƏKARLAR

Kimin dəvət edilməsi müzakirə olunduğu zaman radikallaşma haqqında elmi ədəbiyyatın bu mövzuda təklif edə biləcəyi çox şey var. Geniş spektorda peşəkarların nəzərdə tutulduğu yanaşmalar son dərəcə dəyərli olaraq qəbul edilir (Schmid 2013). Polis məmurları, xüsusilə icma məmurları aşkar rol oynayırlar. Bəzi regionlarda terrorizm əleyhinə mübarizədə xüsusi cavabdehlikləri olan polis heyəti artıq təyin edilmişdir. Həbsxanaların radikallaşma üçün inkubasiya nöqtəsi ola biləcəyini nəzərə alsaq digər hüquq-mühafizə heyətinin, məsələn həbsxana gözətçisi və şərti azadlıq sahəsi üzrə əməkdaşların da daxil edilməsi faydalı ola bilər (Neumann və Rogers 2007).

TERRA əsas diqqətini gənc insanlara yönəldir. Tədqiqatlar göstərir ki, əksər hallarda 15-25 yaş arasında gənc oğlanlar daha çox radikallaşan demoqrafik qrup hesab edilirlər (Silke 2008 and Christmann 2012). Müəllimlər və gənclərin işsizliyi və ya məktəbdən uzaqlaşması ilə mübarizə aparan sosial işçilər, peşəkarlar, gənclərin getdikləri klub, sosial və ya idman mərkəzlərində işləyənlər kimi digər gənclər sahəsi işçilərinin hamısı icma əsaslı yanaşmada maraqlı ola bilərlər. Radikallaşma prosesində identiklik və vətəndaşlıq axtarışının çox vacib olduğu artıq sübut edildiyinə görə (de Wolf and Doosje 2010, de Koster and Houtman 2008, Moghaddam 2005) tarix, ana dili və xarici dil, müqayisəli din, şəxsi və sosial təhsil və ya vətəndaşlıqla bağlı digər fənləri tədris edən müəllimlər yanaşma üçün xüsusilə uyğun ola bilərlər (Staub 2007).

Avropada siyasi qrupların radikallaşmada əhəmiyyətli rol oynamasına baxmayaraq dini ekstremizm də həmçinin diqqətə alınmalıdır. Bu səbəbdən, dini liderlər çox faydalı şəkildə bu icma şəbəkəsinə daxil edilə bilərlər.

Bununla yanaşı fəal rol oynaya bilən kiçik miqyaslı təşəbbüslər də sizin ərazinizdə mövcud ola bilər. Bu misallara demoqrafik qruplara əsaslanan təşkilatlar və ya artıq zorakılıq əleyhinə yaxud da irqçilik əleyhinə kampaniyalara cəlb edilmiş fəal qruplar aid edilə bilərlər.

**SİZİN ŞƏBƏKƏNİZƏ DAXİLƏ EDİLƏ BİLƏCƏK PEŞƏKARLAR:**

- **Polis zabitləri**
- **Həbsxana gözətçiləri**
- **Şərti azadlıq üzrə zabitlər**
- **Müəllimlər**
- **Gənclər sahəsi üzrə digər işçilər**
- **Sosial işçilər**
- **Dini liderlər**

VİDEOYA VEBDƏ BAX:
**TerRaToolkit.eu**



**BERTJAN DOOSJE**
SOSİAL PSİXOLOGİYA ÜZRƏ PROFESSOR RADİKALLAŞMA ARAŞDIRMALARI RƏHBƏRİ AMSTERDAM UNİVERSİTETİ, NİDERLAND KRALLIĞI

# 5 İCMA YANAŞMASI SİSTEMİNİ FORMALAŞDIRMAQ

**Biz yerli hökumətlərə aşağıdakı addımları atmağı məsləhət görürük:**

- Sizin ərazinizdə hər hansı bir peşəkarlar şəbəkəsinin – rəsmi və ya qeyri-rəsmi – mövcud olub-olmadığını dəqiqləşdirin. Mövcud olduğu təqdirdə aşağıda təklif edilmiş profillərin orada təmsil edildiyini yoxlayın. Bir çox şəhərlərdə gənclər arasında cinayətkarlıq, problemli məhəllələr və ya müqayisəli problemlərlə məşğul olan şəbəkələr, qruplar artıq mövcuddur. Bu şəbəkələr radikallaşmanı tanımaq və ona qarşı mübarizə aparmaq üçün təşəbbüsləri dəstəkləməkdə vacib ola bilərlər.
- Əgər belə şəbəkələr hələ də mövcud deyilsə, təşəbbüskar kimi çıxış edin.
- Sizin yurisdiksiyanız altında olan ərazilərdə radikallaşma üçün “qaynar nöqtələrin” olub-olmadığını müəyyənləşdirin. Bu, irqi, etnik, dini və ya siyasi bölgünün kəskin şəkildə hiss edildiyi məktəb, ibadət yerləri və ya yaşayış əraziləri ola bilər. Sizin yurisdiksiyanız altında belə “qaynar nöqtələr” olduğu təqdirdə şəbəkə görüşlərinizdə bütün peşəkar qrupların lazımı dərəcədə təmsil oldunduqlarından əmin olun.
- Həssas vəziyyətdəki şəxsləri müəyyən etmək üçün yaxşı yerləşdirilmiş əsas fiqurları müəyyənləşdirin. Bacardığınız qədər bu prosesIə əlaqəli ola biləcək daha çox sahəni əhatə etməyə və sizin ərazi üçün xüsusi ola biləcək layihələri daxil etməyə çalışın. Sizin daxil etmək istəyə biləcəyiniz peşəkarların profillərinin nümunəsi aşağıda verilmişdir.
- Əlaqələndirici rolu oynamağa hazır olun. Əsas fiqurlar arasında əlaqələr qurmağa təşəbbüs göstərin və onları açıq görüşə dəvət edin. TERRA-nın video materialları və təqdimatları təşəbbüsün məqsədini təqdim etmək üçün sizə dəstək verə bilər.
- Ölkənizdə peşəkar məlumat mübadiləsi ilə əlaqədar qanunu yoxlayın. Bu istiqamətdə fəaliyyət göstərmək şəbəkə üçün hüquqi olaraq mümkündürmü? Məhdudiyyətlər nələrdir?
- Qrupdakı iştirakçılardan orada mübadilə edilmiş məlumatların gizliliyinə (konfidensiallığına) hörmətlə yanaşmalarını xahiş edin.
- Bu qrupun müntəzəm olaraq görüşməyə davam etdiklərindən əmin olun. Mümkün olduğu qədər baş tutacaq görüşlər üçün xüsusi məkan təmin etməklə bu prosesi öz əməli dəstəyinizlə asanlaşdırın.
- Bu görüşlərdə əlaqələndirici və ya aparıcı kimi fəaliyyət göstərin. Şəxs və ya qrup haqqında hər hansı narahatlıq doğuran xəbərin təşəbbüsə cəlb edilmiş bütün peşəkarlara aydın şəkildə çatdırıldığından əmin olun. Belə ki, həmin şəxsə ayrılan diqqət, kommunikasiya və kömək vasitəsilə müsbət identiklik formalaşdırmaq cəhdi üçün səylər koordinasiya edilə bilər.

## ŞƏBƏKƏ GÖRÜŞLƏRİ ZAMANI FAYDALI ŞƏKİLDƏ MÜZAKİRƏ EDİLƏ BİLƏCƏK MÖVZULAR

- Narahatlığa səbəb ola biləcək şəxsi kazuslar;
- Bu şəxslərin ailələri ən yaxşı şəkildə necə dəstəklənə bilər;
- Potensial olaraq radikallaşmağa həssas ola biləcək sosial qruplar;
- Ərazidə mövcud olan radikal elementlər, məsələn radikal ideologiya ilə əlaqəsi ola biləcək cəlbedicilər və ya cinayətkar qrup;
- İcma daxilində narazılıqları təşviq edən və radikallaşmanı bəsləyən irqçilik, ayrı-seçkilik və hədəflənmiş zorakılıq kimi hadisələr;
- Keçmiş radikalların reinteqrasiyası;
- Radikallaşma qurbanlarının hekayələrindən qabaqlayıcı vasitə olaraq məlumatlılığın artırılması və tədris məqsədilə istifadə etmək.

Radikallaşma problemini tanımaq və qarşısını almaq üçün geniş və bütöv yanaşmaya ehtiyac var. Həssas vəziyyətdəki və ya artıq radikallaşan şəxs haqqında narahatlıqlarını paylaşa bilən şəbəkə icmanızda olan problemin qarşısını almaq üçün daha yaxşı mövqeyə sahib olacaqdır.

VƏSAİT BU LİNKDƏN ƏLDƏ EDİLƏ BİLƏR: TerRaToolkit.eu

# SİYASƏTLƏ BAĞLI TÖVSİYƏLƏR MİLLİ HÖKUMƏT

**Avropada radikallaşma və de-radikallaşma**

## MİLLİ HÖKUMƏT ÜÇÜN SİYASƏTLƏ BAĞLI TÖVSİYƏLƏR

*Siyasət qurucuları üçün hazırlanmış bu sənəd icma yanaşması vasitəsilə radikallaşma problemləri ilə yerli səviyyədə mübarizə aparmağa dair təklifləri ehtiva edir. Sənəddə belə bir yanaşmadan necə istifadə edilməsinə dair təlimat, hansı peşəkarların prosesə cəlb olunması, eləcə də bu yanaşma ilə nələrin əldə olunacağına dair fikirlər öz əksini tapıb.*

MÜNDƏRİCAT


1 MƏQSƏDLƏR VƏ ARXA PLAN: RADİKALLAŞMA İLƏ İŞ 58
2 RADİKALLAŞMA: İCMA YANAŞMASI 58
3 ƏKS-HEKAYƏLƏR QURMAQ 61
4 DE-RADİKALLAŞMA VƏ İCMA HƏMRƏYLİYİ 62




## 1 MƏQSƏDLƏR VƏ ARXA PLAN: RADİKALLAŞMA İLƏ İŞ

Radikallaşma terrorizmə apara bilər və cəmiyyətdəki radikal qruplar yeni radikallaşma prosesini alovlandıran fikir ayrılığına səbəb ola və sosial çatlar yarada bilər. Sosial həmrəyliyi və başlıcası təhlükəsizliyi inkişaf etdirmək üçün Avropa hökumətlərinin radikallaşmanın səbəbləri və prosesləri haqqında tamamilə xəbərdar olması və onunla mübarizə aparmaq üçün ciddi nəticələr doğura biləcək müfəssəl yanaşmanı qəbul etməyi çox vacibdir.
Bu sənəd bir məqsədlə hazırlanmışdır: belə yanaşmanı həyata keçirməkdə və möhkəmləndirməkdə sizə bələdçilik etmək. Bu sənəd eyni zamanda radikallaşmanı müəyyən edə və qarşısını ala bilən qabaqcıl işçiləri, eləcə də ekstremist təşkilatı tərk etmək arzusunda olanların de-radikallaşma prosesini necə dəstəkləməyə dair tövsiyələri də ehtiva edir. Lazımi qaydada həyata keçirildiyi zaman bu təşəbbüslər təhlükəsizliyi artıra da bilər.
Sənəd müasir tədqiqat əsasında, radikallaşma və terrorizmin qurbanları, və keçmiş terroristlərin de-radikallaşma prosesləri, eləcə də de-radikallaşma prosesini yaşamış insanlar haqqında ən dərin və həqiqi məlumata malik ekspertlərlə aparılmış konsultasiyalar nəticəsində hazırlanmışdır. Aparıcı akademik ekspertlərdən də həmçinin məsləhət alınmışdır.
Sənədin əsas məqsədi milli siyasətin fövqünə çıxaraq milli və Avropa təhlükəsizliyinin daha da möhkəmləndirilməsi və sosial həmrəyliyin gücləndirilməsindən ibarət regional gündəliyə öz töhfəsini verməkdir.

## 2 RADİKALLAŞMA; İCMA YANAŞMASI

Biz geniş peşəkarlar qrupu ilə müxtəlif sosial təbəqələr arasında aydın məlumat axınını mümkün edən və onu bir mənada asanlaşdıran bir strukturun qurulmasını təklif edirik. Radikallaşa biləcək həssas vəziyyətdəki insanın şəxsi trayektoriyalarına, yerli və milli səviyyədə radikallaşma tendensiyalarını izləmək və onlara nəzarət etmək üçün icma yanaşmasının tətbiqini tövsiyə edirik.
**İcma yanaşması daxilində hər şəhər bələdiyyəsi ərazisində fəaliyyət göstərən müxtəlif qabaqcıl peşəkarlar aşağıdakı mövzuları birgə müzakirə etmək məqsədilə dəvət olunublar:**
- Narahatlığa səbəb ola biləcək şəxsi kazuslar;
- Bu şəxslərin ailələri ən yaxşı şəkildə necə dəstəklənə bilər;
- Potensial olaraq radikallaşmağa həssas ola biləcək sosial qruplar;
- Ərazidə mövcud olan radikal elementlər, məsələn radikal ideologiya ilə əlaqəsi ola biləcək cəlb edənlər və ya cinayətkar qrup;
- İcma daxilində narazılıqları təşviq edən və radikallaşmanı bəsləyən irqçilik, ayrı-seçkilik və hədəflənmiş zorakılıq kimi hadisələr;
- Keçmiş radikalların reinteqrasiyası;

- Radikallaşma qurbanlarının hekayələrindən qabaqlayıcı vasitə olaraq məlumatlılığın artırılması və tədris məqsədilə istifadə edilməsi.

Gənclər arasında cinayətkarlıq, problemli məhəllələr ilə məşğul olan və artıq yerlərdə mövcud olan şəbəkələr bu yanaşmanı həyata keçirmək üçün istifadə edilə bilər və ya bu məqsədlə yeni şəbəkələr qurula bilər.

Görüşlər müntəzəm qaydada keçirilməli və əsas diqqət şəxs və ya qrupla bağlı narahatlıqların paylaşılmasına, bu şəxslə yaxın əlaqədə olanların dəstəklənməsinə və hər bir ərazi üzrə monitorinq tendensiyasına yönəldilməlidir.

## İCMA YANAŞMASI ŞƏBƏKƏSİNƏ FAYDALI ŞƏKİLDƏ DAXİL EDİLƏ BİLƏN PEŞƏKARLAR

Təklif etdiyimiz yanaşmada hər bir çevrədən olan nümayəndələrə bir yerə toplaşmaq üçün vaxt və yer ayrılmışdır. Onlar radikallaşma haqqında məlumat və dolğun materi-alla təmin ediliblər (məsələn, TERRA vəsaitlər toplusunu təşkil edən digər sənədlər).



- Həssas vəziyyətdəki insan
- Ailə, həmyaşıdlar, məktəb mühiti (gündəlik əlaqə)
- İcma, dini liderlər, polis, gənclər sahəsi işçiləri, idman klubları da daxil (sıx əlaqə)
- Siyasət qurucuları, jurnalistlər (sosial kontekstdə təsir)

Bu dairə modelindəki hər bir çevrənin həssas vəziyyətdəki insanla müxtəlif növ əlaqələri mövcuddür. Davranışlarda, həmyaşıd qruplarda və ya ideologiyalardakı dəyişikliklər kənar çevrə ilə müqayisədə iç çevrədə olan ailə üzvləri və peşəkarlar üçün daha aydındır. Məsələn, gənc insanın valideynləri oğlunun xarici görünüşündə etdiyi kəskin dəyişikliyi və tədricən əvvəlki həmyaşıd qruplarını tərk edərək yeni dostlarla görüşməyini görə bilər. Lakin, oğlanı ilk dəfə görən polis məmuru onun ötən bir il ərzində nə qədər dəyişdiyini görə bilməyəcəkdir – halbuki, bu proses çox vacibdir. Buna görə də nə baş verə biləcəyini həqiqətən qavramaq üçün müvafiq çevrələr arasında əlaqə, kommunikasiya və şəffaflığı aydınlaşdırmaq çox əhəmiyyətlidir.

*Müzakirə edilə bilməyən ideyalar barədə danışarkən insanlar tərəfindən istifadə edilən dil haqqında məlumatlı olmağa ehtiyacımız var.*

---

Kimin dəvət edilməsi müzakirə olunduğu zaman radikallaşma haqqında elmi ədəbiyyatın bu mövzuda təklif edə biləcəyi çox şey var. Geniş spektorda peşəkarların nəzərdə tutulduğu yanaşmalar son dərəcə dəyərli olaraq qəbul edilir (Schmid 2013). Polis məmurları, xüsusilə icma məmurları aşkar rol oynayırlar. Bəzi regionlarda terrorizm əleyhinə mübarizədə xüsusi cavabdehlikləri olan polis heyəti artıq təyin edilmişdir. Həbsxanaların radikallaşma üçün inkubasiya nöqtəsi ola biləcəyini nəzərə alsaq digər hüquq-mühafizə heyətinin, məsələn həbsxana gözətçisi və şərti azadlıq üzrə əməkdaşların da daxil edilməsi faydalı ola bilər (Neumann və Rogers 2007).

TERRA əsas diqqətini gənc insanlara yönəldir. Tədqiqatlar göstərir ki, əksər hallarda 15-25 yaş arasında gənc oğlanlar daha çox radikallaşan demoqrafik qrup hesab edilirlər (Silke 2008 and Christmann 2012). Müəllimlər və gənclərin işsizliyi və ya məktəbdən uzaqlaşması ilə mübarizə aparan sosial işçilər, peşəkarlar, gənclərin getdikləri klub, sosial və ya idman mərkəzlərində işləyən şəxslər kimi digər gənclər sahəsi işçilərinin hamısı icma əsaslı yanaşmada maraqlı  ola bilərlər. Radikallaşma prosesində identiklik və vətəndaşlıq axtarışının vacib olduğu artıq sübut edildiyinə görə (de Wolf and Doosje 2010, de Koster and Houtman 2008, Moghaddam 2005) tarix, ana dili və xarici dil, müqayisəli din, şəxsi və sosial təhsil və ya vətəndaşlıqla bağlı digər fənləri tədris edən müəllimlər yanaşma üçün xüsusilə uyğun ola bilərlər (Staub 2007).

Avropada siyasi qrupların radikallaşmada əhəmiyyətli rol oynamasına baxmayaraq dini ekstremizm də həmçinin diqqətə alınmalıdır. Bu səbəbdən, dini liderlər çox faydalı şəkildə bu icma şəbəkəsinə daxil edilə bilərlər.

Bununla yanaşı fəal rol oynaya bilən kiçik miqyaslı təşəbbüslər də sizin ərazinizdə mövcud ola bilər. Bu misallara demoqrafik qruplara əsaslanan təşkilatlar və ya artıq zorakılıq yaxud da irqçilik əleyhinə kampaniyalara cəlb edilmiş fəal qruplar aid edilə bilərlər.

## MİLLİ HÖKUMƏTİN ROLU

Bu icma əsaslı yanaşmanın təşkil edilməsinin əsas cavabdehliyi yerli hökumətlərin üzərinə düşsə də, milli səviyyədə dəstək çox vacibdir. Bir şəhər bələdiyyəsi ərazisində belə bir şəbəkə həmin ərazidə yaşayan insanlar üçün fərqlilik yarada bilsə də, bu şəbəkələrin milli səviyyədə həyata keçirilməsi milli təhlükəsizliyin əhəmiyyətli dərəcədə yaxşılaşmasına səbəb ola bilər. Bu yanaşmanı həyata keçirmək üçün mövcud şəbəkələrin istifadə edilməsi onun xərcini minumuma endirir, lakin milli hökumətdən əsas dəstək və yerli hökumətlərin oynadıqları həyati rolların milli səviyyədə tanınması isə belə yanaşmanın uğurlu olması üçün əhəmiyyətlidir.

Hökumət qurumları arasında ekstremizm əleyhinə siyasəti milli hökumət koordinasiya etməlidir. Baxmayaraq ki, siyasətlər ədliyyə, cəmiyyət və ya təhsil qurumları üçün spesifik ola bilər və layihələrin təhvil verilməsi yerli hökumətin cavabdehliyində ola bilər, bütün hökumət qurumları arasında şəffaflıq və yekdillik çaşqınlığın qarşısını alacaq və səmərəliliyi artıracaqdır.

VİDEOYA VEBDƏ BAX: **TerRaToolkit.eu**



**MATTYU FRANCIS**
BÖYÜK ELMİ İŞÇİ
QLOBAL QEYRİ-MÜƏYYƏNLİK ÜZRƏ LİDERLİK PROQRAMI
LANÇESTER UNİVERSİTETİ, BİRLƏŞMİŞ KRALLIQ

# 3 ƏKS-HEKAYƏLƏR QURMAQ

Bu hissəyə qədər daha çox fərdi və qrup səviyyəsindəki radikallaşmaya diqqət ayırmış bu sənəd radikallaşma təhlükəsində olan insanı əhatə edənlərə dəstəyin necə göstəriləcəyinə aiddir. Lakin, elmi ədəbiyyatdakı hazırkı tendensiya radikallaşmanın həmçinin dövlət rəsmiləri (state actor) səviyyəsində də baş verə biləcəyini söyləyir (Schmid 2013, Bellamy 2013). Xüsusilə, bu nəzəriyyə onu göstərir ki, məsələn, terrorizm əleyhinə mübarizənin bir hissəsi kimi işgəncənin istifadə edilməsində icra hüququnu təsdiq edərək və ya onda iştirak edərək, başqa sözlə desək, mülki insanlara fiziki xəsarət yetirməyə səbəb olmağı və ya icazə verməyi qadağan edən qanundan kənara çıxmaqla və ya əxlaq kodeksini pozmaqla dövlət rəsmiləri də həmçinin radikallaşa bilər. İşgəncənin birbaşa terrorizmə səbəb olacağını söyləyə bilməsək də, onun şübhəsiz olaraq terrorizmin alovlanmasına gətirib çıxaran atəşi daha da alışdırdığını söyləmək mümkündür. Hər hansı bir rejim tərəfindən istifadə olunan işgəncədəki artım ilə regionda baş vermiş ölümlə nəticələnən terror hücumlarının ümumi sayındakı artımın eyni anda baş verdiyi müşahidə olunur (Bellamy 2013).

Eyni kateqoriyaya daxil edildikdə, xüsusi etnik qrupları aşkar şəkildə seçib müəyyənləşdirən terrorizm əleyhinə mübarizə strategiyalarından istifadə edə bilərik (Bux 2007). Sadəcə hazırkı ədəbiyyat deyil, eyni zamanda mövcud xəbər hesabatları belə bu kimi strategiyaların nəinki sadəcə səmərəsiz olduğunu, eləcə də icma həmrəyliyinin əleyhinə işlədiyini göstərir. Belə ki, bu cür yanaşma bir etnik qrupun aşkar ayrı-seçkiliyə məruz qaldığını hiss etməsinə və digər qrupların (həmkarların) təsəvvüründə həmin qrupun kriminal obrazının yaranmasına səbəb ola bilər.
İfrat hekayələr sadəcə siyasi olaraq dini sui-istifadə edən ideologiyalara əsaslanmır, onlar eyni zamanda mövcud narazılıqları manipulyasiya da edir. Terrorizmlə mübarizə qanunvericiliyi ilə insan hüquqları arasında uyğunluğun artırılması həyati əhəmiyyətə malik olan zorakılığa qarşı fəaliyyətin sarsıdılmasının qarşısını alacaqdır. Çünki, son nəticədə milli hökumətlər ekstremistlərin onlardan qəsb etməyə çalışdıqları mənəvi zəmində aliliyi qoruyub saxlamağa malikdirlər. Dövlət ilə cəmiyyət arasında kommunikasiya vasitələrinin artırılması hökumətin əlaqədar siyasətini aydınlaşdıracaq və radikallaşma və cəlbetmə məqsədilə cəmiyyətdəki mövcud narazılıqların ifrat qruplaşmalar tərəfindən istismarını sarsıdacaqdır.

Fakt ondan ibarətdir ki, radikal qrupların yeni üzvləri cəlb etmələri üçün istifadə etdikləri hekayələr yaxşı sənədləşdirilmişdir və bu hamıya məlumdur (məsələn, Bailey və Grimalia 2006, De Koster və Houtman 2008, Schmid NCTB 2010 Navaz 2012). Ekstremist qruplar üçün mesajları (diqqətlə seçilmiş) faktlarla dəstəkləyə bilmək çox vacibdir. Mənəvi baxımdan şübhəli olan terrorizm əleyhinə mübarizə təcrübələrini dəstəkləməkdə Qərb hökumətləri sadəcə ifrat hekayələrə töhfə vermir, onlara olan etimadları da sarsıdırlar (de Graaf NCTB 2010).

Bu tədqiqatdan, mövqeyin necə təqdim edəcəyinizlə əlaqədar siyasətlə bağlı bəzi aydın tövsiyələr qeyd oluna bilər:

- İşgəncənin tətbiq edilməsini dəstəklənməməsi və bu təcrübələrin rədd edildiyinə dair bəyanatların ictimaiyyətə açıqlanması.
- Yerli icma təbəqələrinin qarşısını alan və ya onlara qarşı ayrı-seçkilik edən terrorizm əleyhinə mübarizə ölçülərinin həyata keçirilməməsi.
- Xarici döyüşçülər ilə bağlı qanunların konkretləşməsi.
- Xarici siyasətlə bağlı əlaqələrin aydın olması.
- Təhlükəsizlik/kəşfiyyat xidmətlərinin (məlumat əlaqələndirilmələri də daxil olmaqla) davranışlarını aydın şəkildə nizamlanması və əlaqələndirilməsi.
- Bəzi Avropa ölkələrində səlahiyyətli orqanlara, xüsusi hüquq-mühafizə xidmətlərinə etimadın olmaması radikallaşmaya birbaşa təsir edə və ifrat qrupların hekayələrini bəsləyə bilər. Təsvir etmə (profaylinq), institusional irqçilik və ayrı-seçkilik kimi məsələlər əsaslı şəkildə tədqiq edilməli və aydın, vicdanlı şəkildə geniş ictimaiyyətə çatdırılmalıdır.

## 4 DE-RADİKALLAŞMA VƏ İCMA HƏMRƏYLİYİ

Ədəbiyyat göstərir ki, bir şəxsin aid olduğu extremist qrupdan uzaqlaşmaq qərarında bir çox amillər dönüş yarada bilər. Bu səbəblərdən ən çox rast gəlinəni siyasətçilərin nəzarəti xaricindədir: şəxsi vəziyyətdə dəyişiklik və ya radikal qrupun rəhbərliyi ilə bağlı ümidlərin puça çıxması. (Alonso 2011, Navaz 2012, Reinares 2011). Bununla yanaşı, eyni ədəbiyyat göstərir ki, xüsusi bir yanaşma uğurlu reinteqrasiya üçün olduqca əhəmiyyətli ola bilər. Keçmiş ETA (Bask Separatist Hərəkatı) terrorçularını nümunə kimi istifadə edərək Alonso (2011) qeyd edir ki, terrorist qrupla hər hansı siyasi konsepsiyanın (güzəşt) məqsədə uyğun olmadığı ilə yanaşı, hər kəsin zorakılıqdan azad, yeni həyata başlamağa imkanının olduğuna təminat vermək üçün fərdi səviyyədə dəstəyin göstərilməsi çox vacibdir. Buraya əvvəlki həmkarları haqqında məlumat verməyi seçdikləri təqdirdə həmin şəxslərin reinteqrasiya fəaliyyətləri, identiklikdə dəyişikliklər və şahidlərin qorunması proqramı daxil edilə bilər. Məhkumluq cəzasının azaldılması və yeni həyat qurmaq uçun dəstək kimi şəxsi qazancların çox səmərəli olduğu görülmüşdür.

QEYD

QEYD



Bu vəsaitlər toplusunda və eləcə də **www.terratoolkit.eu** veb səhifəsində əldə edə biləcəyiniz materiallar fəaliyyətləri zamanı radikallaşmaya həssas ola bilən əhali qrupları ilə sıx ünsiyyətdə olan peşəkarlar üçün hazırlanmışdır. Vəsaitlər toplusu mövzunun sizin üçün nə qədər uyğun olduğu, radikallaşma baş verdiyi halda onun necə fərqinə vara biləcəyiniz və onunla bağlı nə edə biləcəyinizə dair məlumatları ehtiva edir. Problemin tam mənzərəsini təsvir və onun həllinə yönəlmiş yanaşmanı əhatə edən vəsaitlər, həmçinin əlaqədar faktlara dair məlumatlar veb səhifədən pulsuz əldə edilə bilər.